# DAYANIQLILIQ HESABATI

## 2022 → 2023



# MÜNDƏRİCAT


Prezidentin müraciəti 3
Hesabat haqqında 4
Tərkibi və metodologiyası 4
Əhəmiyyətliliyin təhlili 5

Haqqımızda

2022-2023-cü illər üçün əsas mərhələlər 7
Fəaliyyətimizə ümumi baxış 8

AZAL-da dayanıqlılıq

Bizim dayanıqlılıq yanaşmamız 14
DİM-lərə töhfəmiz 16
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə 23
Məsuliyyətli təchizat zənciri 24
Strateji prioritetlərimiz 25

İdarəetmə

Korporativ idarəetməmiz 27
İqtisadi təsirimiz 28
Komplayens, Dürüstlük və Etik davranış 28

İşçilərə qayğı

İşçilərin inkişafı 32
AZAL Akademiyası 34
Təlimlər 36
Sosial imtiyazlar 37
Müxtəliflik və bərabər imkanlar 38
Təhlükəsiz və etibarlı iş yeri 39

Müştərilərimiz

Müştərilərin təhlükəsizliyi 42
Hava limanlarının dayanıqlı inkişaf xidmətləri 43
Rəqəmsallaşma 45
AZAL Miles 46
Aşağı büdcə strategiyası 47

Ekoloji məsuliyyət

İqlim dəyişikliyinə reaksiya 49
İstixana qazı emissiyaları və yanacaqdan səmərəli istifadə 50
Ətraf mühiti idarəetmə sistemi 51
> Səs-küyə qarşı mübarizə 51
> Tullantıların idarə edilməsi 51
> Enerji və su sərfiyyatı 52

Nəticə 53
Göstərici cədvəlləri 54
GRI cədvəli 58

**AZƏRBAYCAN HAVA YOLLARININ (AZAL) 2022-2023-CÜ MALİYYƏ İLİNİ ƏHATƏ EDƏN VƏ ÖZÜNDƏ FƏALİYYƏTİMİZİN MÜKƏMMƏLƏŞDİRİLMƏSİ, İNNOVASİYALAR, DAYANIQLILIĞIN TƏMİNİ İSTİQAMƏTİNDƏ ATDIĞIMIZ ADDIMLARI ƏKS ETDİRƏN DAYANIQLILIQ HESABATINI MƏMNUNİYYƏTLƏ SİZƏ TƏQDİM EDİRƏM.**



# PREZİDENTİN MÜRACİƏTİ

“Azərbaycan Hava Yolları”nın (AZAL) 2022-2023-cü maliyyə ilini əhatə edən və fəaliyyətimizin mükəmməlləşdirilməsi, innovasiyalar, dayanıqlılığın təmini istiqamətində atdığımız addımları əks etdirən Dayanıqlılıq haqqında hesabatını məmnuniyyətlə sizə təqdim edirəm.

2022-ci ildə çətin pandemiya dövrü başa çatdıqdan sonra AZAL öz fəaliyyətini bərpa etməyə müvəffəq oldu. Bu nailiyyəti əməliyyat göstəricilərimiz təcəssüm etdirir. 2021-ci illə müqayisədə 2022-ci ildə uçuşların sayı demək olar ki, 9 139-dan iki dəfə - 18 363-ə qədər artmışdır. Eyni zamanda biz fəaliyyətimizi pandemiyadan əvvəlki dövrün səviyyəsinə çatdırmaqla kifayətlənməyərək, daha yüksək göstəricilərə nail olmuşuq ki, bunu da 2023-cü ildə uçuşların sayının 26 266-ya çatması sübut edir. Fəaliyyətimizin bərpası və ümumilikdə fəaliyyət göstəricilərinin yüksəlməsi istiqamətində bu mühüm irəliləyiş Şirkətin müxtəlif sahələrdə fasiləsiz təkmilləşmə siyasətinin reallaşdırılması sayəsində mümkün olmuşdur. Fəaliyyətin bərpası və bunu dəstəkləyən əlavə tədbirlərin həyata keçirilməsi məqsədilə görülən işlərə əməliyyatların effektivliyinin artırılması, eyni zamanda sərnişinlərə göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi də daxildir. Fasiləsiz və dayanıqlı inkişafa bağlılığımız veb-saytımızın və mobil tətbiqimizin mütəmadi olaraq yenilənməsində öz əksini tapır. 2023-cü ildə biz həmçinin müştərilərin konkret ehtiyaclarına cavab verən xidmətlər təklif edə bilmək üçün Müştərilərlə münasibətlərin idarə olunması (MMİO) sisteminin inteqrasiyası ilə əlaqədar araşdırmalara start vermişik.

Eyni zamanda bizim bu səylərimiz beynəlxalq səviyyədə tendensiyalara və ən qabaqcıl təcrübəyə uyğunlaşmanı təmin etməyə yönəlmişdir. Bu səylərə misal olaraq uçuşlarımızın yanacağa qənaət edən Airbus A320neo və Boeing Dreamliner 787-8 kimi hava gəmiləri ilə diversifikasiyasını göstərmək olar. Biz bu strateji xarakterli addımların, uğurlu əməliyyat və maliyyə göstəricilərinin dayanıqlı inkişafla mükəmməl birləşməsi sayəsində, MDB regionunun aparıcı nəqliyyat şirkəti kimi mövqeyimizi daha da gücləndirəcəyinə inanırıq.

2023-cü ildə təsdiq edilən strateji inkişaf planımızın müəyyən etdiyi istiqamətlərdən biri xərclərin optimallaşdırılmasıdır. Qürur hissi ilə qeyd etmək istərdim ki, bu strategiyanın reallaşdırılmasının ilkin mərhələsi və effektivliyin artırılması istiqamətində göstərdiyimiz fasiləsiz səylərimiz maliyyə göstəricilərimizin əhəmiyyətli dərəcədə yüksəlməsi ilə nəticələnmişdir. Həmin konkret nəticələrdən biri 2023-cü ildə gəlirimizin 1,4 milyard manata çatmasıdır ki, bu da həyata keçirdiyimiz strateji təşəbbüslərin effektivliyinə və rəqabətin güclü olduğu bazarda mövqeyimizin möhkəmliyinə dəlalət edir.

Digər tərəfdən son illər ərzində həyata keçirilmiş səmərəli tədbirlər sadəcə əməliyyat və maliyyə göstəricilərimizlə əks olunmur, beynəlxalq səviyyədə də qəbul edilir. “Mərkəzi Asiya və MDB üzrə ən yaxşı regional aviaşirkət” və 2022-ci, 2023-cü illər üzrə “Mərkəzi Asiyanın və MDB-nin ən yaxşı hava limanı” nominasiyasında qalib seçilməyimiz bizim üçün iftixar mənbəyidir. Biz daima nəinki mövqeyimizi qoruyub saxlamağa, həm də fasiləsiz təkmilləşməyə çalışırıq.

Törəmə şirkətlərimizin oynadığı mühüm rolu başa düşdüyümüzə görə biz onların da fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində ardıcıl səylərimizi davam etdirmişik. Hava nəqliyyatının idarə olunması üzrə məsul törəmə şirkətimiz olan AZANS 2022-ci ildə CANSO təşkilatının Qlobal təhlükəsizlik sahəsində nailiyyətlərə görə mükafatına (ing. Global Safety Achievement Award) layiq görülmüşdür.

AZAL, xüsusilə də Azərbaycanın tərəqqisi və inkişafı kontekstində, öz gələcəyini hava nəqliyyatı sektorunda dayanıqlılığa üstünlük verilməsində görür. Biz Azərbaycanın aviasiya sektorunun daha etibarlı təməlini qura bilmək və onu daha da irəlilətmək üçün dayanıqlılığı təmin edən iş təcrübəsinin əməliyyatlarımıza inteqrasiyasını davam etdirəcəyik.

**Samir Rzayev**
AZAL-ın prezidenti

"Azərbaycan Hava Yolları" QSC-nin (bundan sonra "AZAL", "Azərbaycan Hava Yolları", "Biz" və ya "Şirkət" adlandırılır) dərc etdirdiyi və 2022-2023-cü illəri əhatə edən bu ikiillik Dayanıqlılıq haqqında hesabat AZAL-ın ekoloji, sosial sahədə və idarəetmə sahəsində (ESİ) dayanıqlılıq istiqamətində səyləri haqqında maraqlı tərəflərin şəffaf şəkildə məlumatlandırılması məqsədini güdür. Biz qəbul edirik ki, şəffaf və yüksək keyfiyyətli, maraqlı tərəflərin gözləntilərinə cavab verən hesabatlar dayanıqlılıq fəaliyyətiniz və onun təsirləri ətrafında qarşılıqlı inam və etibarın qurulması üçün həlledici əhəmiyyətə malikdir. Fəaliyyətimiz haqqında məlumatları səmərəli şəkildə təqdim edə bilmək üçün biz ilk növbədə GRI standartlarını rəhbər tuturuq. Biz maraqlı tərəflərin iştirakını yüksək qiymətləndirir, onların öz rəylərini, şərhlərini bildirməsini təşviq edirik. Fikirlərinizi bildirmək üçün müvafiq nümayəndəmizə müraciət etməyiniz xahiş olunur (əlaqə məlumatları hesabatın sonunda verilir).



# TƏRKİBİ VƏ METODOLOGİYASI

| | |
|---|---|
| **Hesabat haqqında** | 2022-2023-cü illəri əhatə edən bu Dayanıqlılıq haqqında hesabatda dayanıqlı inkişaf üzrə əldə etdiyimiz göstəricilər haqqında hərtərəfli məlumat verilir və bu sahəyə aid başlıca mövzular nəzərdən keçirilir. Hesabatda idarəçilik praktikası, iqtisadiyyata təsirlər və işçilərin iştirakçılığı kimi məsələlərin təhlili yolu ilə idarəçiliyə dair normativ tələblərin yerinə yetirilməsinə bağlılığımız ön plana çıxarılır. Hesabata həmçinin müştəriyönümlü, göstərdiyimiz xidmətlərimizin yaxşılaşdırılmasını vurğulayan bölmələr də daxil edilmişdir. Sonda ətraf mühitin mühafizəsi sahəsində səylərimiz haqqında məlumat verilir, ətraf mühitin mühafizəsi üzrə idarəçilik metodlarımızın ətraflı təsviri verilir və istixana effekti yaradan qazların atmosferə buraxılışı təhlil olunur. |
| **Hesabatın dövriliyi** | İkiillik |
| **Hesabat dövrü** | 1 yanvar 2022-ci il – 31 dekabr 2023-cü il |
| **Hesabatın sərhədləri** | • "Azərbaycan Hava Yolları" Sərnişin Aviaşirkəti;<br>• "Buta Airways" Sərnişin Aviaşirkəti;<br>• Milli Aviasiya Akademiyası (MAA);<br>• Heydər Əliyev Beynəlxalq Aeroportu (GYD);<br>• "Gəncə" Beynəlxalq Hava Limanı (GNJ);<br>• "Naxçıvan" Beynəlxalq Hava Limanı (NAJ);<br>• "Lənkəran" Beynəlxalq Hava Limanı (LLK);<br>• "Zaqatala" Beynəlxalq Hava Limanı ZTU);<br>• "Qəbələ" Beynəlxalq Hava Limanı (GBB);<br>• "Füzuli Beynəlxalq Hava Limanı" Məhdud Məsuliyyətli Cəmiyyəti;<br>• Zəngilan Beynəlxalq Hava Limanı;<br>• "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS);<br>• Aviasiya Təhlükəsizlik Baş İdarəsi;<br>• "AZALOIL" Yanacaq-Sürtkü Materialları İdarəsi (AZALOIL);<br>• Törəmə müəssisələr və Nümayəndəliklər. |
| **Təşkilatın adı** | "Azərbaycan Hava Yolları" QSC |
| **Baş qərargahlar** | Azərbaycan, Bakı |
| **Hesabatın sərhədləri** | Hesabat Qlobal hesabatlılıq təşəbbüsünün (GRI) standartlarına uyğun tərtib edilmişdir<br>Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (SDG) |
| **Mövcud dillər** | İngilis, Azərbaycan |

Cədvəl 1. Hesabatın əhatə dairəsi və sərhədləri

AZAL şəffaflığa və hesabatlılığa bağlılığımız çərçivəsində GRI standartlarına riayət etməklə bu hesabat üçün kompleks əhəmiyyətlilik təhlili aparıb. Bu proses müsahibələr, müştəri rəylərinin təhlili, sahə üzrə ətraflı müqayisəli təhlillərin aparılması və hər bir göstərici ilə əlaqəli potensial risklərin qiymətləndirilməsi yolu ilə daxili maraqlı tərəflərlə qarşılıqlı əlaqəni əhatə edib. Nəticə etibarilə, həm fəaliyyətimiz, həm də maraqlı tərəflərimiz üçün həlledici olan on altı əsas vacib məsələni müəyyənləşdirdik və prioritetləşdirdik. Bu təhlil əhəmiyyətli problemlərin həllinə və fəaliyyətimizin bütün sahələrində dayanıqlılığın artırılmasına bağlılığımızı əks etdirir.



# ƏHƏMİYYƏTLİLİYİN TƏHLİLİ

| | Mənfi Təsir | | | Müsbət Təsir | |
|---|---|---|---|---|---|
| | Ağırlıq | Ehtimal | İnsan hüquqları | Miqyas | Ehtimal |
| **Ekoloji dayanıqlılıq** | | | | | |
| İqlim dəyişikliyi və istixana qazı emissiyaları | Ağır | Gözlənilir | Aşağı | Əhəmiyyətli | Gözlənilmir |
| Yanacaq səmərəliliyi və AF | Ağır deyil | Gözlənilir | Orta | Əhəmiyyətli | Gözlənilmir |
| Səs-küy və yerli havanın keyfiyyətini idarəetmə | Ağır | Gözlənilir | Yüksək | Çox əhəmiyyətli | Gözlənilmir |
| **Sosial məsuliyyət** | | | | | |
| Müxtəliflik, Bərabərlik və İnkluzivlik | Ağır deyil | Gözlənilmir | Yüksək | Əhəmiyyətli | Gözlənilir |
| Cəmiyyətin iştirakı | Ağır deyil | Gözlənilir | Aşağı | Əhəmiyyətli | Gözlənilir |
| İşçilərlə münasibətlər və istedadın inkişaf etdirilməsi | Son dərəcə ağır | Gözlənilir | Yüksək | Çox əhəmiyyətli | Gözlənilir |
| Sağlamlıq və əməyin mühafizəsi | Son dərəcə ağır | Gözlənilmir | Yüksək | Çox əhəmiyyətli | Son dərəcə gözlənilir |
| **İqtisadi və əməliyyat təcrübəsi** | | | | | |
| Xidmətin keyfiyyəti və müştəri məmnuniyyəti | Ağır | Gözlənilir | Orta | Əhəmiyyətli | Gözlənilir |
| Təchizat zəncirinin dayanıqlılığı | Son dərəcə ağır | Gözlənilmir | Orta | Çox əhəmiyyətli | Gözlənilir |
| Dayanıqlı iqtisadi inkişaf | Son dərəcə ağır | Gözlənilir | Yüksək | Çox əhəmiyyətli | Gözlənilir |
| Təyyarə parkını idarəetmə | Son dərəcə ağır | Gözlənilmir | Yüksək | Çox əhəmiyyətli | Son dərəcə gözlənilir |
| İnnovasiya və Texniki nailiyyət | Ağır | Gözlənilir | Orta | Əhəmiyyətli | Gözlənilir |
| **İdarəetmə və Komplayens** | | | | | |
| Komplayens və normativ tələblərə riayət etmə | Son dərəcə ağır | Gözlənilmir | Yüksək | Çox əhəmiyyətli | Son dərəcə gözlənilir |
| Yaxşı İdarəetmə və işgüzar etika | Son dərəcə ağır | Gözlənilir | Orta | Çox əhəmiyyətli | Gözlənilir |
| Kibertəhlükəsizlik | Son dərəcə ağır | Gözlənilir | Yüksək | Çox əhəmiyyətli | Son dərəcə gözlənilir |
| Beynəlxalq əməkdaşlıq | Ağır | Gözlənilmir | Aşağı | Əhəmiyyətli | Gözlənilir |

Cədvəl 2. AZAL-ın 2022-2023-cü illər üçün əsas mövzuları




# HAQQIMIZDA

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti 7 aprel 1992-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra yaradılan ilk milli aviaşirkət kimi təsis edilmişdir. MDB regionunda milli aviadaşıyıcı və aparıcı aviasiya şirkəti kimi fəaliyyət göstərən AZAL ən müasir təyyarə parkına malikdir. Müstəsna sərnişin xidməti ilə tanınan aviaşirkət nüfuzlu beynəlxalq "Skytrax" reytinqlərindəki yüksək mövqeləri ilə təsdiq olunduğu kimi, mülki aviasiyanın aparıcı hava daşıyıcıları arasında yer alır. Daimi genişlənmə çərçivəsində "Azərbaycan Hava Yolları" QSC öz marşrut şəbəkəsini genişləndirmək üçün müntəzəm olaraq yeni mövsümi və çarter reyslərini təqdim edir.



# 2022-2023-CÜ İLLƏR ÜÇÜN ƏSAS MƏRHƏLƏLƏR

## ƏMƏLİYYATIN ƏSAS MƏQAMLARI

- 2022-ci ildə Zəngilanda yeni beynəlxalq hava limanının istismara verilməsi regionda əlaqəliliyi və səmərəliliyi artırır
- IATA Consulting ilə 2023-2030-cu illər üçün imzalanan memorandum şəbəkə və təyyarə parkının planlaşdırılmasına, 2023-2027-ci illər üçün təfərrüatlı cədvəllərə və səmərəliliyi və Avropa Aviasiya Təhlükəsizliyi Agentliyinin tələblərinə uyğunluğu artırmaq məqsədi daşıyan 2028-2030-cu illər üçün yüksək səviyyəli planın həyata keçirilməsinə yönəlib.
- "Buta Airways" Sərnişin Aviaşirkətinin AZAL ilə birləşməsi əməliyyat xərclərini azaltmaq və səmərəliliyi artırmaq məqsədi daşıyır

## PANDEMİYADAN ƏVVƏLKİ İNKİŞAF SƏVİYYƏSİNİ ÜSTƏLƏMƏK

Biz pandemiyanın çətinliklərinə baxmayaraq, əməliyyatlarımızı bərpa etməklə yanaşı, həm də uçuşların ümumi sayında pandemiyadan əvvəlki səviyyələri keçməyimizi, eyni zamanda xidmətimizdən faktiki istifadəni nümayiş etdirən sərnişin-kilometr üzrə gəlirlərinin pandemiyadan əvvəlki səviyyələrə çatdığını bölüşməkdən məmnunuq.




## MÜKAFATLAR

"Skytrax 2022 World Airline Awards" dünyanın 100-dən çox ölkəsində sərnişinlər arasında keçirdiyi sorğu əsasında hava limanının keyfiyyəti üzrə qlobal standartı müəyyən edir. 2022-ci və 2023-cü illərdə AZAL və onun törəmə müəssisələri aşağıdakı mükafatları qazanıb.



| | | | |
|---|---|---|---|
| 2023-cü ildə ardıcıl olaraq 12-ci dəfə "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı regional aviaşirkəti" | 2022-ci ildə ilk dəfə olaraq "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı aşağıbüdcəli aviaşirkəti" | 2023-cü ildə ardıcıl olaraq 5-ci dəfə "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı aeroportu" | 2023-cü ildə ardıcıl olaraq 2-ci dəfə "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı hava limanı heyəti" |

Şəkil 1. Əsas məqamlara ümumi baxış

# FƏALİYYƏTİMİZƏ ÜMUMİ BAXIŞ

AZAL Müstəqil Dövlətlər Birliyinin (MDB) aviasiya cəmiyyətində aparıcı aviadaşıyıcı və qabaqcıl qüvvə olaraq, müasir hava gəmiləri parkına və mükəmməl sərnişin xidməti keyfiyyətinə malikdir və tanınmış beynəlxalq reytinqlərdə yüksək mövqelərimiz bunu sübut edir. AZAL Asiya, MDB, Avropa ölkələrinə və ABŞ-a müxtəlif istiqamətlər üzrə uçuşlar həyata keçirir.

| İstismar | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Bütün reyslərin ümumi sayı | 9,139 | 18,363 | 26,266 |
| 2022-ci ildə qət edilən ümumi məsafə (qət edilən məsafə), km-lə | 12,838,870 | 27,833,932 | 43,425,153 |
| Sərəncamda olan sərnişin-kilometr (ASK) | 1,836 | 4,252 | 6,396 |
| Sərnişin yükü əmsalı | 86% | 79.02% | 74% |

Cədvəl 3. Əməliyyat göstəriciləri

2022-ci ildə AZAL əvvəlki illə müqayisədə iki dəfədən çox - 2,2 milyondan çox sərnişin daşımaqla və 18.000-dən çox uçuş həyata keçirməklə fəaliyyətində əhəmiyyətli artım müşahidə etdirib. 2023-cü ildə bu göstərici əhəmiyyətli dərəcədə artaraq 26 266 reys təşkil edib ki, bu da AZAL-ın davamlı inkişafını və aviasiya sahəsində mükəmməliyə can atdığını göstərir. Bu ardıcıl artım ildən-ilə xidmətləri genişləndirmək və əməliyyat imkanlarını artırmaq öhdəliyimizi vurğulayır.

2023-cü ildə marşrut şəbəkəmizi 2022-ci ildəki 31 istiqamətdən iki dəfə artıraraq 58 istiqamətə çatdırmaqla yeni bir mərhələyə qədəm qoyduq. Biz hələ də sərnişinlərimizə daha çox qlobal istiqamətlərə çıxış imkanı vermək üçün xidmətlərimizi və infrastrukturumuzu genişləndirməyə çalışırıq. 2023-cü ildə Şirkət daha 12 A320neo və A321neo modeli üçün müqavilələr imzalamışdır. AZAL 2022-ci ilin iyulunda dörd Dreamliner hava gəmisi üçün götürdüyü əvvəlki öhdəliyini genişləndirməklə 2023-cü ildə səkkiz Boeing 787-8 Dreamliner hava gəmisinin sifarişini yerinə yetirib.

Airbus A320neo, Airbus A321neo və Boeing 787-8 Dreamliner hava gəmiləri bir neçə ümumi spesifikasiyalara, o cümlədən təkmilləşdirilmiş yanacaq səmərəliliyi, azaldılmış emissiyalar və təkmilləşdirilmiş salon dizaynı və daha səssiz işləmə sayəsində sərnişin rahatlığının artırılması imkanlarına malikdir. Həmçinin, hər bir hava gəmisinin özünəməxsus xüsusiyyətləri var. A320neo daha kiçikdir, bir qayda olaraq təxminən 140-240 sərnişin tutur və səmərəliliyi artıran qanad uclarının aerodinamik səth xüsusiyyətlərinə (Sharklets) görə orta məsafəli uçuşlar üçün uyğundur. Bunun əksinə olaraq, A321neo 240 sərnişinə qədər daha böyük tutum üçün nəzərdə tutulmuşdur. Boeing 787-8 Dreamliner hava gəmisi yüngül kompozit konstruksiyası ilə seçilir ki, bu da ona uzun məsafəli uçuşlar həyata keçirməyə imkan verir, onu uzun məsafəli marşrutlar üçün ideal seçimə çevirir, həmçinin rütubətə nəzarəti yaxşılaşdırmaqla və kabin təzyiqini azaltmaqla rahatlığı artıran qabaqcıl salon yeniliklərimə malikdir.

Sərnişinlərin etibarlılığına, təhlükəsizliyinə və rahatlığına üstünlük verdiyimizdən, təyyarə parkını genişləndirmək istəyimiz uçuşlarımızın sayının və müntəzəmliyinin artması ilə əlaqədardır. Qeyd edək ki, AZAL tarixində ilk dəfə olaraq “GetJet Airlines” aviaşirkəti ilə üç Airbus A320neo hava gəmisi üçün hava gəmilərinin ekipajla birlikdə icarəyə götürülməsi haqqında müqavilə imzalayıb. Bu müqaviləyə təkcə hava gəmisi deyil, həm də uçuş heyəti, texniki baxış, sığorta, keyfiyyət təminatı və uçuş təhlükəsizliyi kimi xidmətlər də daxildir. “GetJet Airlines” aviaşirkəti ilə bu tərəfdaşlıq bazar payını artırmaqla mövqelərimizin möhkəmləndirilməsi baxımından mühüm strateji addımdır. AZAL-ın regionun ən vacib nəqliyyat qovşaqlarından biri olan Heydər Əliyev Beynəlxalq Aeroportunu idarə etdiyini nəzərə alsaq, bu cür tərəfdaşlıqlar Şirkətin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.



Yuxarıdakı cədvələ nəzər salsaq, AZAL-ın əsas əməliyyat göstəricilərində əhəmiyyətli artıma nail olduğunu görə bilərik. Bu artım tendensiyası bir neçə amillə izah edilə bilər. Birincisi, marşrut şəbəkəmizin strateji baxımından genişlənməsi və yeni istiqamətlərdə uçuşların həyata keçirilməsi daha çox sərnişini cəlb edib. Təyyarə parkımızın modernləşdirilməsinə və işimizin səmərəliliyini artırmağa investisiya yatırmaqla daha böyük tutumlu daha çox reys təklif edə bilmişik. Bundan əlavə, COVID-19 pandemiyasının fəsadlarının aradan qaldırılması ilə eyni vaxtda təsadüf etdiyi üçün bu nailiyyətlərin xüsusilə əhəmiyyətli olduğunu vurğulamaq vacibdir. Pandemiya görünməmiş problemlər yaratsa da, davamlılığımız və gördüyümüz qabaqlayıcı tədbirlər bizə nəinki onlarla mübarizə aparmağa, həm də aviasiya sənayesində dayanıqlı inkişafa və mükəmməlliyə nail olmağa imkan verdi.




Uçuşların ümumi sayı

# “BUTA AIRWAYS” SƏRNİŞİN AVİAŞİRKƏTİ

“Buta Airways” Sərnişin Aviaşirkəti bütün fəaliyyəti boyu sərfəli səyahət variantları təklif etməklə və regional əlaqəliliyi yaxşılaşdırmaqla Azərbaycanın aviasiya sənayesinə əhəmiyyətli təsir göstərib. Sərfəli qiymət yanaşması ilə tanınan “Buta Airways” Sərnişin Aviaşirkəti həm Bakı, həm də Gəncə Beynəlxalq hava limanlarından qonşu ölkələrə uçuşlarını genişləndirərək beynəlxalq əlaqəliliyi yaxşılaşdırıb. Əsasən Heydər Əliyev Beynəlxalq Aeroportunda yerləşən “Buta Airways” Sərnişin Aviaşirkəti inkişaf etməkdə olan aşağı büdcəli aviaşirkətlər bazarını müəyyən edən AZAL əməkdaşlarının təcrübəsindən yararlanıb.

2022-ci ildə “Buta Airways” Sərnişin Aviaşirkəti pandemiyadan təsirlənən bir neçə istiqamətə, o cümlədən Rusiyada Mineralnıye Vodı, Ufa, Jukovski və Gürcüstanda Batumi istiqamətlərinə uçuşları bərpa etdi. Aviaşirkət Braziliyanın səkkiz Embraer E-190 hava gəmisindən ibarət təyyarə parkını istismar edirdi ki, bu da 20-dən çox istiqamətə uçuşlar həyata keçirməyə və ildə 650.000-dən çox sərnişinə xidmət göstərməyə imkan verdi. Aşağı büdcəli brend kimi təsis edilmiş “Buta Airways” Sərnişin Aviaşirkəti fəaliyyət göstərdiyi müddətdə müştəri bazasını ardıcıl olaraq genişləndirmiş və effektli artım mərhələlərinə nail olmuşdur. Səyləri nəticəsində “Buta Airways” Sərnişin Aviaşirkəti “Skytrax 2022 World Airline Awards” tərəfindən “Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı regional aviaşirkəti” və “Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı aşağıbüdcəli aviaşirkəti” mükafatının qalibi olmuşdur.




# MİLLİ AVİASİYA AKADEMİYASI




1992-ci ildə “Milli Aviasiya Mərkəzi” adı ilə təsis edilmiş AZAL-ın Milli Aviasiya Akademiyası (MAA) hazırda ali təhsil müəssisəsi kimi fəaliyyət göstərir. Onun məqsədi Azərbaycanın strateji əhəmiyyətli aerokosmik sektoru, o cümlədən mülki aviasiya və əlaqədar sahələr üçün beynəlxalq standartlara cavab verən yüksək ixtisaslı mütəxəssislər hazırlamaqdır. Akademiya ICAO, SAC və digər beynəlxalq mülki aviasiya təşkilatları tərəfindən müəyyən edilmiş qaydalara riayət edir və Avropa Aviasiya Təhlükəsizliyi Agentliyi (EASA) ilə bağlanmış işçi müqavilədən irəli gələn öhdəlikləri yerinə yetirir.

6 fakültəsi və 23 kafedrası olan MAA 290.000 kvadrat metrlik ərazini əhatə edir və ən müasir avadanlıqlar, ixtisaslaşmış auditoriyalar, laboratoriyalar, müasir kitabxanalar və qabaqcıl üçayaqlı simulyator mərkəzi ilə təchiz edilmişdir. Binalarda idman zalı və istehsal sahəsi də var. 800 işçisi olan və ildə 180.000-dən çox dərs saatı keçirən MAA hələ də yeni nəsil pilotların hazırlanması və yetişdirilməsi ilə məşğuldur. MAA haqqında daha ətraflı məlumatla “AZAL Akademiyası” bölməsində tanış ola bilərsiniz.

Milli Aviasiya Akademiyası 2022-ci ildə texnologiya və innovasiyalara həsr olunmuş tədbir olan “Technofest Azerbaijan 2022” festivalında iştirak edərək, Akademiyanın elm, texnologiya, mühəndislik və riyaziyyata (STEM) marağın inkişafına sadiqliyini nümayiş etdirmişdir. Bundan başqa, Akademiya Azərbaycan mülki aviasiya işçilərinin peşə bayramı münasibətilə tədbir keçirərək, aviasiya sənayesi işçilərinin dəstəklənməsi və onlara ehtiram göstərilməsində öz rolunu vurğulayıb.

# HAVA LİMANININ İŞİ

2022-ci ildə Zəngilan Beynəlxalq hava limanının tikintisinin başa çatması Azərbaycanın səkkizinci beynəlxalq hava limanının yaradılması ilə əlamətdar oldu. Artıq Azərbaycanın beynəlxalq statuslu hava limanları siyahısına aşağıdakılar daxildir:

- Heydər Əliyev Beynəlxalq Aeroportu
- "Gəncə" Beynəlxalq Hava Limanı
- "Qəbələ" Beynəlxalq Hava limanı
- "Zaqatala" Beynəlxalq Hava limanı
- "Lənkəran" Beynəlxalq Hava limanı
- "Naxçıvan" Beynəlxalq Hava limanı
- "Füzuli" Beynəlxalq Hava limanı
- "Zəngilan" Beynəlxalq Hava limanı

Heydər Əliyev Beynəlxalq Aeroportu (GYD) Azərbaycanın və Qafqaz regionunun ən böyük aeroportu olub, özünün təsirləndirici sərnişin və yük axını, uçuş-enmə əməliyyatları, aerovağzal zonası və yük kompleksinin tutumu ilə seçilir. Yüksək səviyyəli xidmətləri ilə tanınan bu aeroport 2022-ci ilin sentyabr ayında "Buta Airways" Sərnişin Aviaşirkətini ölkənin ilk aşağıbüdcəli aviadaşıyıcısı adına layiq görüb. Hər il təxminən 45.000 reysə xidmət göstərən Aeroport iki terminalı səmərəli şəkildə idarə etməklə, mühüm beynəlxalq nəqliyyat və paylayıcı qovşaq kimi öz rolunu gücləndirir.

2022-ci ildə Azərbaycanın səkkizinci beynəlxalq hava limanı olan Zəngilan beynəlxalq hava limanının tikintisi başa çatdırılıb. Aviasiya sənayesində dayanıqlı təcrübələr getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayır və biz Azərbaycanın hava limanlarında müvafiq dəyişiklikləri izləməyə davam edəcəyik. GYD 2023-cü ili innovasiya, infrastrukturun təkmilləşdirilməsi və marşrut şəbəkəsinin genişləndirilməsi sahəsində diqqətəlayiq irəliləyişlərlə başa vurdu. Heydər Əliyev Beynəlxalq Aeroportu "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı regional aviaşirkəti" və ardıcıl olaraq ikinci dəfə "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı aeroport heyəti" kateqoriyalarında "Skytrax World Airport 2023" mükafatlarının qalibi olub. Hava limanları şəbəkəsinin davamlı inkişafı Azərbaycanın qlobal əlaqəliliyə sadiqliyini vurğulayır. Heydər Əliyev Beynəlxalq Aeroportu regionun ən böyük və ən əhəmiyyətli aeroportu statusunu qoruyub saxlamaqla, dayanıqlı işə can atan əsas nəqliyyat qovşağı olaraq qalır.

**Yüksək səviyyəli xidmətləri ilə tanınan bu aeroport 2022-ci ilin sentyabr ayında "Buta Airways" aviaşirkətini ölkənin ilk aşağıbüdcəli aviadaşıyıcısı adına layiq görüb.**







# “AZƏRAERONAVİQASİYA” HAVA HƏRƏKƏTİ İDARƏSİ

1996-cı ildə “Azəraeronaviqasiya” Hava Hərəkəti İdarəsi (AZANS) hüquqi müstəqillik əldə etmək üçün AZAL-ın ilkin struktur bölməsi kimi təsis edilmişdir. AZANS Azərbaycan Respublikasının hava məkanında hava hərəkətinin idarə edilməsinə (HHİ) cavabdehdir və hava hərəkəti xidmətləri göstərməklə və koordinasiyanı təmin etməklə ölkənin bütün hava məkanında uçuşların təhlükəsizliyinin təmin edilməsi ilə məşğuldur. AZANS hava hərəkətinin idarə edilməsi sahəsində regional və beynəlxalq əməkdaşlıqda fəal iştirak edir, əməkdaşlığın inkişafında fəal rol oynayır.

ICAO-nun üzvü olan AZANS təşkilatın strukturuna və standartlarına tam uyğun fəaliyyət göstərir ki, bu da kənar auditlər zamanı müstəqil şəkildə təsdiqlənib. Uçuş təhlükəsizliyini ən yüksək səviyyədə təmin etmək üçün AZANS bütün əməliyyat fəaliyyətlərində IATA-nın 3-cü səviyyəli uçuş təhlükəsizliyi idarəetmə sistemini tətbiq edir. Bu rəsmi yanaşma, risklərin qiymətləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, nəzarət və monitorinq üçün əsas olan yaxşı sənədləşdirilmiş təhlükəsizlik qaydaları, prinsipləri və prosedurlarına əsaslanır. Xidmətlər təhlükəsiz və səmərəli iş mühiti təmin edən qabaqcıl texniki sistemlərin dəstəyi ilə yüksək ixtisaslı dispetçerlər nəzarətçilər tərəfindən təmin edilir.

AZANS Aireon ilə əməkdaşlıq edərək Azərbaycanda bütün yüksəkliklərdə Bakı FIR rayonunu əhatə etmək üçün Azərbaycanda Kosmik Hava Hərəkətinə nəzarət sistemini tətbiq edib. Azərbaycanın regionda kosmik texnologiyaların inkişafına rəhbərlik etmək istəyinə əsaslanaraq, AZANS təyyarələri səmərəli, təhlükəsiz və ekoloji cəhətdən ən təmiz şəkildə idarə etmək üçün ən müasir imkanları təmin edən Aeron-un ADS-B kosmik müşahidə məlumatlarını öz hava məkanına daxil etməyə razılıq verməklə irəliyə doğru mühüm texnoloji addım atıb.

Yanacaq istifadəsi və $CO_2$ emissiyasının azaldılması barədə təhlil ilə ölçülən aviasiyanın ətraf mühitə təsiri AZANS-ın diqqət mərkəzində olan məsələdir. Ətraf mühitə çirkləndirici tullantıların monitorinqi AZANS-ın aviasiyanın ətraf mühitə təsirini minimuma endirməyə kömək etmə üsuludur. Azərbaycan hava məkanının optimallaşdırılmış şəbəkə strukturu və birbaşa marşrut təyinatı (DCT) prosedurlarının tətbiqi kimi AZANS təşəbbüsləri Aviasiya sahəsində yanacaq sərfini və sonrakı CO2 emissiyalarını əhəmiyyətli dərəcədə azaldır. Azərbaycan hava məkanında fasiləsiz eniş (CDO) və fasiləsiz yüksəliş (CCO) əməliyyatlarının tətbiqi, hava məkanı istifadəçilərinin səmərəli yüksəliş/eniş üçün üstünlüklərini nəzərə alaraq CO2 emissiyalarını və yanacaq sərfini azaldan daha bir ekoloji cəhətdən zərərsiz həlldir. Bu layihələr dayanıqlı inkişaf məqsədlərinə xüsusi diqqət yetirən ICAO-nun 2030-cu il üçün Qlobal aviasiya planına uyğundur.

2022-ci ildə AZANS-ın “CANSO Global Safety Achievement” mükafatına namizəd olması onun təhlükəsiz istismara, o cümlədən risklərin azaldılmasına və səmərəliliyin artırılmasına sadiqliyinin ifadəsidir. Hava dəhlizlərinin səmərəli təşkilinin təmin edilməsində AZANS-ın rolu çox vacibdir. Hava hərəkətinin optimallaşdırılması yanacaq sərfinin və emissiyaların azalmasına səbəb ola bilər. Orta artım tempi 134,1% olan və sayı getdikcə artan tranzit uçuşların təhlükəsiz şəkildə yerinə yetirilməsi AZANS-ın hava məkanını səmərəli idarə etmək qabiliyyətini göstərir. Bu əməliyyat mükəmməlliyi AZANS-ın həm təhlükəsizliyə, həm də ətraf mühitin

**Yanacaq istifadəsi və $CO_2$ emissiyasının azaldılması barədə təhlil ilə ölçülən aviasiyanın ətraf mühitə təsiri AZANS-ın diqqət mərkəzində olan məsələdir.**

qorunmasına sadiqliyini vurğulayaraq uzunmüddətli perspektivdə ümumi dayanıqlığı artırır.

2023-cü ildə Türkiyənin Dövlət Hava Limanları Baş İdarəsi (DHMI) və Aeronaviqasiya xidmətləri təminatçısı (ANSP) və “Azəraeronaviqasiya” Hava Hərəkəti İdarəsi Avropa və Asiya ANSP-ləri üçün Aeronaviqasiya təhlükəsizliyinin əlaqələndirilməsi üzrə regional platformanın (SOCEA) yaradılması təşəbbüsü ilə çıxış edib. Bu Əlaqələndirmə Platformasının məqsədi uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün regional strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi, eləcə də ANSP-lər arasında aeronaviqasiya sahəsində əməkdaşlığın təşviqi və inkişafıdır. SOCEA regiondakı HHİ üzrə təhlükəsizliyə nəzarət sistemlərinin səmərəli tətbiqinə və regional səviyyədə təhlükəsizliyin idarə edilməsinə risk yönümlü yanaşmanın tətbiqinə, eləcə də regiondakı ANSP-lər arasında əməkdaşlığa koordinasiyalı yanaşmaya töhfə verir.



# "AZALOIL" YANACAQ-SÜRTKÜ MATERİALLARI İDARƏSİ

1997-ci ildə təsis edilmiş "AZALOIL" Yanacaq-Sürtkü Materialları İdarəsi aviasiya əməliyyatları üçün yanacaq və sürtkü materialları ilə bağlı bütün məsələlərə nəzarət və idarəetməyə görə cavabdeh olan AZAL-ın mühüm bölməsidir. Bu idarə bütün təyyarə parkının ehtiyaclarını ödəmək üçün ardıcıl və etibarlı şəkildə aviasiya yanacağının tədarükünü, o cümlədən yanacaq keyfiyyətinin monitorinqini, saxlanmasını və müxtəlif hava limanlarına və yanacaqdoldurma məntəqələrinə paylanmasını təmin edir. İdarə sərfəli və səmərəli satınalmaları təmin etmək üçün təchizatçılarla yanacaq müqavilələrinin bağlanmasında da mühüm rol oynayır.

İdarə hesabat dövründə aviasiya sektorunun dayanıqlı inkişafına birbaşa töhfə verən yanacaq istehlakını səmərəli idarəetmə üsullarının tətbiqinə xüsusi diqqət yetirib. AZALOIL həmçinin yanacağın emalı və saxlanması zamanı ətraf mühitə təsiri minimuma endirən müasir standartların qəbulu üzərində işləyir.



# NÜMAYƏNDƏLİK ŞƏBƏKƏSİ

Müştəri xidmətlərini yaxşılaşdırmaq, koordinasiya və kommunikasiyanı asanlaşdırmaq, həmçinin onların maraqlarını qorumaq üçün AZAL 30-dan çox nümayəndəlik və agentlikdən ibarət geniş qlobal şəbəkə yaradıb. Bu nümayəndəliklər Asiya, Avropa və İngiltərənin strateji ərazilərində yerləşir.

AZAL-ın qlobal nümayəndəlik şəbəkəsi bütün dünyada müştərilərə xidmət göstərir. Bu nümayəndəliklər dayanıqlılıq təşəbbüslərini birbaşa həyata keçirməsə də, aviasiya sənayesində ekoloji məsuliyyətə artan diqqət onların gələcəkdə müştərilər arasında dayanıqlı təcrübələrin təşviqində rol oynaya biləcəyini göstərir.





# AZAL-DA DAYANIQLILIQ

# BİZİM DAYANIQLILIQ YANAŞMAMIZ

Hesabat dövrlərində AZAL ekoloji və sosial cəhətdən məsuliyyətli təcrübələri öz əməliyyatlarına inteqrasiya etməklə dayanıqlılığa sadiqliyini önə çəkməyə davam edib. AZAL-ın hələlik konkret ESG strategiyası olmasa da, Şirkətdə əməliyyatların səmərəliliyinin artırılmasına yönəlmiş dayanıqlı inkişaf siyasətinin hazırlanması prosesi davam edir. Bu siyasət hər biri beynəlxalq standartlara cavab verən əsas sahələrə həsr olunmuş bir neçə bəndə bölünəcək. Hərtərəfli nəzərdən keçirildikdən sonra onun 2024-cü ildə tam tətbiq ediləcəyi gözlənilir. AZAL-ın beynəlxalq standartlara davamlı sadiqliyi onun mükəmməlliyə və dayanıqlı inkişafa can atdığını göstərir.

## ƏTRAF MÜHİT



Biz AZAL-da aviasiya üçün dayanıqlı gələcəyin yaradılmasına çalışırıq. Ümumi enerji sərfimizi daha da azaltmaq üçün obyektlərimizdə qabaqcıl, enerjiyə qənaət edən texnologiyaları və təcrübələri tətbiq etməyə çalışırıq. Tullantıların azaldılması və təkrar emalı üçün hərtərəfli proqramlar tətbiq etməklə, əməliyyatlarımızın yerli ekosistemlərə və bioloji müxtəlifliyə hörmət etməsini və onları qorumasını təmin etməklə, ətraf mühitə təsirimizi azaltmağa çalışırıq. Bizim öhdəliyimizə həm də səs-küy və havanın keyfiyyəti ilə bağlı ən yaxşı sənaye təcrübələrinə cavab vermək və onları aşmaq da daxildir.

## SOSİAL



AZAL öz əməkdaşlarının, səyahət edənlərin və bütövlükdə cəmiyyətin rifahına xüsusi diqqət yetirməklə müsbət sosial təsir göstərməyə çalışır. Xidmət göstərdiyimiz regionlarda iş yerləri yaratmaqla, yerli müəssisələri dəstəkləməklə və ictimai infrastruktura investisiya qoymaqla iqtisadi inkişafına töhfə veririk. Yeni nəsil aviasiya mütəxəssislərinin inkişafına kömək edən təlim proqramları, təqaüdlər və təcrübələr təklif etmək üçün təhsil müəssisələri ilə əməkdaşlıq edirik. Cəmiyyətin bütün üzvləri üçün bərabər imkanlar yaradan təşəbbüsləri dəstəkləməklə, sosial bərabərsizliyi azaltmağa çalışırıq.

## İDARƏETMƏ



Biz bilirik ki, güclü korporativ idarəetmə olmadan ekoloji və sosial təşəbbüslərimizi həyata keçirmək mümkün olmayacaq. İnanırıq ki, səmərəli idarəetmə etik biznesin əsasını təşkil edir. Buna görə də, biz idarəçiliyimiz üçün yüksək standartlara riayət edirik və bu, tədricən stimullaşdırma effekti vasitəsilə bütün biznes əməliyyatlarımıza nüfuz edir. Fəaliyyətimizi IATA, ICAO, ISAGO, FAA, EASA və ISO daxil olmaqla bir çox beynəlxalq standartlara və çərçivə sazişlərinə uyğunlaşdırırıq. Məqsədimiz sərnişinlərimizə, işçilərimizə, icmalarımıza və bütövlükdə planetimizə fayda gətirəcək şəkildə işləmək, hamı üçün dayanıqlı gələcəyi təmin etməkdir.

## TƏYYARƏ PARKININ MODERNLƏŞDİRİLMƏSİ

AZAL daha çox yanacağa qənaət edən hava gəmilərinin alınmasına diqqət yetirərək təyyarə parkının modernləşdirilməsinə əhəmiyyətli investisiyalar yatırıb. Şirkət 2023-cü ildə öz əvvəlki modelləri ilə müqayisədə hər oturacağa görə təxminən 15-30% daha az yanacaq sərf edən Airbus 320neo, Airbus 321neo və Boeing 787-8 Dreamliner hava gəmilərini satın almaqla öz təyyarə parkını şaxələndirib və beləliklə, bu təşəbbüs 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq məqsədimizə uyğun olaraq karbon emissiyalarında nəzərəçarpacaq dərəcədə azalma ilə nəticələnib. Daha az yanacaq sərfi və emissiyalar üçün nəzərdə tutulmuş müasir təyyarə modellərinin tətbiqi dayanıqlı aviasiya təcrübələrinə sadiqliyimizi göstərir.

## ƏMƏLİYYATIN SƏMƏRƏLİLİYİ

Bir neçə əsas strategiya vasitəsilə əməliyyat səmərəliliyinin artırılmasına üstünlük veririk. Bunlara uçuş marşrutlarının optimallaşdırılması və yerüstü əməliyyatların təkmilləşdirilməsi daxildir ki, bu da ümumilikdə yanacaqdan istifadənin səmərəliliyinin artmasına kömək edir. Təyyarə parkımız hava hərəkətini qabaqcıl idarəetmə sistemləri və ciddi texniki baxış protokolları sayəsində ən səmərəli şəkildə işləyir və bu da dayanıqlılıq səylərimizi daha da gücləndirir.

## EKOLOJİ CƏHƏTDƏN TƏMİZ AVİASİYA YANACAĞI (SAF)

SAF-ın aviasiya sənayesinin ətraf mühitə təsirinin azaldılmasında oynadığı mühüm rolu qəbul edərək AZAL, SAF-ı öz əməliyyat sisteminə daxil etmək üçün müxtəlif variantları fəal şəkildə araşdırır. Buraya SAF-ın qəbulunun məqsədəuyğunluğu ilə bağlı araşdırmaların aparılması, eləcə də onun inteqrasiyasına kömək edə biləcək potensial dəstək mexanizmlərinin, tərəfdaşlıqların və texnologiyaların müəyyənləşdirilməsi, uçuş əməliyyatlarının dayanıqlığının artırılması və ümumi karbon emissiyalarının azaldılması daxildir. Şirkətin SAF ilə bağlı hazırkı baxışı onun məqsədəuyğunluğu barədə hərtərəfli məlumat əldə etməkdir.



# DİM-LƏRƏ TÖHFƏMİZ

3 GOOD HEALTH AND WELL-BEING

## MÖHKƏM SAĞLAMLIQ VƏ RİFAH

İşçilərimizi dəyərləndiririk və onların öz rifahlarına xələl gətirmədən səylə çalışa biləcəkləri şərait yaratmağa çalışırıq. Qəbul edirik ki, işgüzar fəaliyyət mədəniyyəti ilə əlaqəli kənar təsirlər insanın motivasiyasına əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də işçilərin məmnuniyyətini təmin etmək üçün rəqabətli işgüzar mədəniyyət şəraitində sağlam iş mühiti yaratmalıyıq.
İş yerində təhlükəsizliyi və rifahı təşviq etmək üçün təhlükəsizlik qaydalarını, fövqəladə prosedurları və avadanlıqlardan düzgün istifadəni əhatə edən Təhlükəsizlik üzrə müntəzəm təlim proqramları həyata keçiririk. Biz həmçinin Böyük Britaniyanın standartlarına uyğun olaraq istehsal edilmiş müvafiq fərdi qoruyucu vasitələri təmin edirik.
İşçilərimizin sağlamlığına, təhlükəsizliyinə və ümumi rifahına üstünlük verərək məsuliyyət və qayğı mədəniyyətinə xüsusi diqqət yetiririk. Komanda daxilində mehriban və məhsuldar mühit yaratmaq üçün müxtəlif kommunikasiya kanalları vasitəsilə Komanda qurma tədbirləri və fəaliyyətləri keçiririk. Belə tədbirlərdən birinə oktyabr ayında keçirilən və şirkətin yeni strategiyasını auditoriyaya təqdim edildiyi ilk Ümumi yığıncaq daxildir. Bu mədəniyyət təkcə daxili əməliyyatlarımıza deyil, həm də tərəfdaşlar, müştərilər və bütövlükdə cəmiyyətlə münasibətlərimizə şamil edilir.

İşçilərimizin sağlamlığını qorumaq üçün müntəzəm sağlamlıq müayinələri təklif edir, eləcə də İdman və fitness fəaliyyətlərini maliyyələşdiririk. Bundan əlavə, uçuş ekipajının sağlamlığını qorumaq üçün sanatoriya-kurort yollayışları təqdim edirik. 2023-cü ildə bütün işçilər üçün Könüllü tibbi sığorta proqramına start verdik.

Müştərilərə gəldikdə, onların sağlamlığını və rifahını təhlükəyə atmırıq və fövqəladə hallarda sərnişinlərə etibarlı sağlamlıq tərəfdaşlarımızdan biri vasitəsilə tibbi yardım göstərilir. Dayanıqlı işçiləri idarəetmə üsullarını tətbiq etməklə səhiyyə xərclərini azaldır və ümumi işgüzar əhval-ruhiyyəni yüksəldirik. Bu səylər həm əməliyyat mükəmməlliyinə, həm də dayanıqlı inkişafa nail olmaqda bizə kömək edir. AZAL hava nəqliyyatına nəzarət edən dispetçerlər nəzarətçilər üçün erqonomik və mehriban iş mühiti yaradır, onları xüsusi oturacaqlar və iş mövqeləri ilə təchiz edir.



QUALITY EDUCATION

# KEYFİYYƏTLİ TƏHSİL

Milli Aviasiya Akademiyası gələcək işçilərin aviasiya sektoru ilə tanış olmasında həlledici rol oynayır və qlobal assosiasiyalara və standartlara əsaslanan proqramlar vasitəsilə davamlı təhsil təklif edir. Bu Akademiya hazırda Azərbaycanda mülki aviasiya ilə bağlı əlavə, ali və peşə təhsili proqramları təklif edən yeganə ali təhsil müəssisəsidir. Bundan əlavə, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) Akademiyanı 2013-cü ildən etibarən regional təhsil müəssisəsi kimi tanıyıb. Akademiya MDB, Latviya və Litva Mülki Aviasiya Təhsil Müəssisələri Assosiasiyasının tamhüquqlu üzvüdür. Akademiyada təhsilin keyfiyyəti hər il, üç ildən bir və beş ildən bir keçirilən müstəqil auditlər vasitəsilə doğrulanılır. Digər məsələlərlə yanaşı, IATA hər il təlim mərkəzlərimizi akkreditə edir. Ciddi keyfiyyət təminatı proseduruna riayət etməklə bir çox akademik və keyfiyyət sertifikatlarına layiq görülmüşük.

Aviasiya Akademiyasının məqsədi yeni tendensiyalar fonunda tədris metodlarımızı daim təkmilləşdirməkdir. Ən son təyyarə simulyatorları və digər qabaqcıl texniki təlim vasitələri ilə təchiz olunmuş təlim bazamız var. Gənclərin təhsili ilə yanaşı, işçilərin ümumi və nəzəri biliklərini artırmaq üçün proqramlar təklif edirik. Məcburi təlim sessiyaları işçilərin ən yaxşı təlim imkanlarına çıxışını təmin edən karyera inkişafı proqramımızın vacib komponentidir. Buraya Yenilikçi tam uçuş simulyatorlarımız (FFS) və uçuş simulyatorlarımız (FS) vasitəsilə “Buta Airways” Sərnişin Aviaşirkətinin pilotlarının geniş təlim və sertifikatlaşdırılması daxildir. 2022-ci ildə “Azərbaycan Hava Yolları” QSC “SkyArt” şirkəti ilə uçuş ekipajının və bort bələdçilərinin təlimatlandırılması üçün müasir qəza-xilasetmə simulyatorlarının işlənib hazırlanması haqqında müqavilə imzalayıb. Bu simulyatorlar fövqəladə hallara hazırlığı artırmaq və beynəlxalq təhlükəsizlik standartlarına riayət olunmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. 2023-cü ildə “Azərbaycan Hava Yolları” QSC Azərbaycanda ilk Təsdiq Edilmiş Təlim Təşkilatının (ATO) yaradılması istiqamətində mühüm təşəbbüslə çıxış edib. Bu layihənin məqsədi beynəlxalq, Avropa və milli standartlara cavab verən pilot təlimini keçirməkdir. Türkiyənin mötəbər uçuş məktəbi olan Ayjet ilə bu əməkdaşlıq Azərbaycanda mövcud olan aviasiya təliminin keyfiyyətinin və əhatə dairəsinin artırılması istiqamətində atılan mühüm addımdır.



5 GENDER EQUALITY

## GENDER BƏRABƏRLİYİ

İmkanların bərabərliyi biznes modelimizin əsasını təşkil edir və ölkənin ən yaxşı istedadları əsasında qurulmuş şirkət kimi bunu həmişə dəstəkləməyə çalışırıq. Şirkət ədalətli işə qəbul təcrübələrini təmin etməklə, müxtəlifliyi təşviq etməklə və inklüziv mühit yaratmaqla iş yerində bərabər imkanlar yaratmağa çalışır. İşə qəbul prosesində qərəzliliyi aşkar etmək və aradan qaldırmaq üçün işə qəbul üzrə mütəxəssislər üçün təlim keçiririk. Əmək haqqındakı gender fərqlərini aradan qaldırmaq istəyimizə əlavə olaraq, AZAL-da çalışan kişilərin və qadınların inkişaf və irəliləmə üçün bərabər imkanlara malik olmasına çalışırıq. Nəticə etibarilə, vəzifə tutan kişilər və qadınlar üçün əsas əmək haqqı nisbəti 1:1-dir. Bundan əlavə, AZAL gənc qadınları aviasiya sahəsində karyera qurmağa təşviq etmək üçün Milli Aviasiya Akademiyası kimi təhsil müəssisələri ilə sıx tərəfdaşlıq əlaqələri qurur.




8 DECENT WORK AND ECONOMIC GROWTH

## LƏYAQƏTLİ ƏMƏK VƏ İQTİSADİ İNKİŞAF

6800-dən çox insan birbaşa AZAL-da işləyir, eləcə də daha çox işçi təchizat zəncirimiz vasitəsilə dolayı yolla dəstəklənir. Məqsədimiz ədalətli və inklüziv iş mühiti yaratmaqdır. Bütün işçilərimiz üçün təhlükəsiz iş mühitini təmin etmək məqsədilə idarəetmə planları, prosedurları və sistemləri yaratmağa, həyata keçirməyə və onları inkişaf etdirməyə çalışırıq. Geniş təlim və təkmilləşdirmə proqramlarımız işçilərimizin peşəkar və şəxsi inkişaf üçün lazımı bacarıqlara yiyələnməsini təmin edir.

Bundan başqa, AZAL hesabat dövründə 1 milyard manatdan çox olan heyrətamiz iqtisadi dəyəri təmin edib ki, bu da 2021-ci illə müqayisədə 43% daha çoxdur. Bu əhəmiyyətli artım regional iqtisadi inkişafı dəstəkləmək və ədalətli ticarət prinsiplərini təşviq etmək niyyətimizi göstərir.

Yerli təchizatçılarla fəal şəkildə əməkdaşlıq etməklə yerli iqtisadiyyatı dəstəkləməyə çalışırıq. 2022-ci ildə biz 354-ü yerli olmaqla ümumilikdə 627 təchizatçı ilə əməkdaşlıq etmişik ki, bu da regional biznesləri gücləndirmək və dayanıqlı iqtisadi inkişafa töhfə vermək səylərimizi göstərir. 2023-cü ildə biz təchizatçılarımızın sayını 618-i yerli, 399-u isə beynəlxalq olmaqla, 1017-yə çatdırdıq ki, bu da yerli iqtisadiyyatı dəstəkləmək və təchizatçı şəbəkəmizi genişləndirmək niyyətimizi bir daha vurğulayır.




# SƏNAYE, İNNOVASİYA VƏ İNFRASTRUKTUR

Aviadaşımaya olan tələbatı qarşılamaqla və təminatçı, istifadəçi və istehlakçı ehtiyacını ödəməklə, eləcə də qlobal ekoloji problemləri və müasir hava nəqliyyatı sistemlərindən istifadə ilə bağlı digər problemləri həll etməklə AZAL yüksək keyfiyyətli aviasiya infrastrukturunun inkişafına mühüm töhfə verir. AZAL-ın təkmilləşdirilmiş infrastruktura nail olmaq istəyinin göstəricilərindən biri Heydər Əliyev Beynəlxalq Aeroportunun resursların idarə edilməsini, uçuş məlumatının əks olunmasını və verilənlər bazasına texniki xidməti yaxşılaşdıran "bulud" hesablamalarına tam keçid edən dünyanın ilk hava limanı hesab edilməsidir. Bundan əlavə, ICAO-nun Məlumatlarını Sistem Miqyasında İdarəetmə (SWIM) çərçivəsində AZAL Azərbaycanın Aeronaviqasiya İnformasiya İdarəetmə Sistemlərindən (AIM) istifadə etmişdir. Pilotsuz uçuş aparatları (PUA) və uzaqdan idarə olunan təyyarələr üçün idarəetmə mərkəzinin quraşdırılmış sistemləri ilə yanaşı, Qəbələ hava limanını Heydər Əliyev Beynəlxalq Aeroportundan uzaqdan idarə etmək üçün virtual dispetçer qülləsinin tətbiqi AZAL-ın öz aviasiya infrastrukturunun inkişafı istiqamətində atdığı mühüm addımlardır.

Onu da vurğulamaq lazımdır ki, 2022-ci ildə Farnboro Beynəlxalq Aviasalonunda AZAL "Boeing Commercial Airplanes" şirkətinin Baş icraçı direktoru Stan Deal ilə ölkəyə daha çox turist cəlb etmək üçün dörd yeni Boeing 787-8 Dreamliner hava gəmisinin alınması barədə Anlaşma memorandumu imzalayıb. Bu yeni hava gəmilərinin tədarükü 2025-2030-cu illərə planlaşdırılır.

Bu təşəbbüslər daha bir mühüm hadisə ilə müşayiət olunub. 18 oktyabr 2022-ci il tarixində AZAL ən yüksək ATC tələblərinə cavab verən "Aireon" şirkətinin peyk əsaslı sistemindən istifadə etməklə Azərbaycanın hava məkanında real vaxt rejimində təyyarələrin uçuşuna qlobal nəzarət sistemini təqdim edib. Bu təşəbbüs AZAL-a innovativ texnologiyalardan tam istifadə etmək və aerokosmik sənayedə qlobal nailiyyətlərin bir hissəsi olmaq imkanı verir.

2023-cü il daha çox infrastruktur təşəbbüsləri ilə əlamətdar olub. Aprel ayında AZAL A320neo və A321neo modellərinin də daxil olduğu A320neo qrupuna aid olan 12 hava gəmisi üçün "Airbus" şirkətinə sifariş verib. A320neo qrupuna aid olan bu yeni hava gəmiləri Şirkətin öz təyyarə parkını müasirləşdirmək, yanacaqdan səmərəli istifadəni artırmaq və əməliyyat səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq strategiyasının bir hissəsidir.



12 RESPONSIBLE CONSUMPTION AND PRODUCTION

# MƏSULİYYƏTLİ İSTEHLAK VƏ İSTEHSAL

Resursları məsuliyyətlə qorumaq və idarə etmək niyyətimizlə su və enerji ehtiyatlarından dayanıqlı istifadəyə xüsusi diqqət yetiririk. Su istehlakına dəqiq nəzarət etmək üçün yenilikçi texnologiyalar və üsullar tapmağa çalışırıq. Hal-hazırda sudan istifadə və çirkab sularının kənd təsərrüfatı məqsədləri üçün təkrar istifadəsi barədə aylıq qiymətləndirmələr aparırıq. Bundan əlavə, təbii qazdan asılılığımızı azaltmağa çalışırıq. Həm yerüstü, həm də uçuş əməliyyatlarında yanacaqdan istifadənin səmərəliliyinə diqqət yetirərək, istixana qazı emissiyalarını azaltmağa və ekoloji cəhətdən təmiz mühitin yaradılmasını təşviq etməyə çalışırıq. Yerüstü nəqliyyatdan və hava limanlarının fəaliyyətlərindən qaynaqlanan emissiyaları diqqətlə ölçürük. Bundan əlavə, AZANS Azərbaycanın hava məkanındakı fəaliyyətlər, o cümlədən Uçuş məlumatı rayonu (FIR), Marşrut (ENR) və Uçuş-enmə (LTO) mərhələləri üçün emissiyaları qiymətləndirir.

AZAL-ın tullantıları idarəetmə protokolları hər bir hava limanında tullantıların təsnifləşdirilməsini və toplanmasını, daha sonra müvafiq utilizasiya üsullarının müəyyənləşdirilməsini nəzərdə tutur. Biz ekoloji normalara riayət etmək üçün dövlət orqanları ilə sıx əməkdaşlıq edir, Ekologiya Nazirliyinə mütəmadi olaraq hesabatlar təqdim edirik. Mümkün olduqda obyektlərimizdə tullantıları ayırmaq üçün istifadə edilən qurğularda materiallar təkrar emal olunur. Strategiyamız tullantıları azaltmaq, təkrar istifadə və təkrar emal etməkdir.

Mükəmməlliyimiz fəaliyyət göstərdiyimiz cəmiyyətə müsbət təsir etdiyi üçün biz ölkənin işgüzar ekosisteminə töhfəmizi artırmaq üçün fəal şəkildə yollar axtarırıq. Nəticədə yerli təchizatçılardan mal və xidmətlərin alınmasına üstünlük veririk. 2023-cü ildə təchizatçılarımızın 61% - i yerli müəssisələr təşkil edib.



# İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏ

AZAL emissiyaları minimuma endirmək və enerjiyə qənaət etmək üçün qabaqcıl texnologiyalardan istifadə edir. SkyBreathe karbon izləmə həllindən istifadə etməklə biz yanacaq sərfi, CO2 emissiyaları və hava çirkləndiriciləri ilə bağlı dayanıqlılıq məqsədlərimizə nəzarət edirik. Bu təşəbbüs əməliyyat səmərəliliyini artırır və karbon emissiyalarını azaldır. CORSIA emissiyaların kompensasiya proqramının iştirakçısı olan AZAL zərərli emissiyaların aradan qaldırılmasına sadiqliyini vurğulayır ki, bu da qeyd edilən proqramı Azərbaycanın milli aviadaşıyıcısı üçün strateji baxımdan əhəmiyyətli edir.

Bundan əlavə, Milli Aviasiya Akademiyası ilə strateji tərəfdaşlığımız sayəsində aktiv tədqiqat və təkmilləşmə təşəbbüslərinə can atırıq və təyyarədəki şəraitdən tutmuş hava limanlarının xidmətlərinə qədər fəaliyyətimizin bütün sahələrində texnoloji inkişaflara investisiya yatırırıq. 2022-ci ildə təyyarə parkımızı 26 təyyarəyə qədər artırmaq və təyyarə parkının orta yaşını 15 etmək planlarımızla təyyarə parkının modernləşdirilməsi əsas prioritet olaraq qalır. Hər uçuşda havanın keyfiyyətinə üstünlük verir və sərnişinlərimizin rahatlığına və rifahına böyük diqqət yetiririk.

Qabaqcıl texnologiyanı tətbiq edərək və infrastrukturumuzu modernləşdirərək əməliyyat və Daim təkmilləşən fəaliyyətlər və infrastruktur təşəbbüsü çərçivəsində ekoloji dayanıqlılıq prinsiplərinə möhkəm bağlılığımızı nümayiş etdiririk.

Bundan əlavə, AZANS yanacaq sərfinə nəzarət etməklə və CO2 emissiyalarının azaldılması üzrə təhlil aparmaqla aviasiyanın ətraf mühitə təsiri problemini həll edir. Azərbaycanın hava məkanının optimallaşdırılması və birbaşa marşrut təyinatı (DCT) prosedurlarının tətbiqi kimi təşəbbüslər təyyarələrin yanacaq sərfini və CO2 emissiyalarını minimuma endirməyə kömək edir. Fasiləsiz eniş (CDO) və fasiləsiz yüksəliş (CCO) əməliyyatları ICAO-nun 2030-cu il üçün Qlobal aviasiya planına uyğun olan və dayanıqlı inkişaf məqsədlərini təşviq edən emissiyaların və yanacaq sərfinin daha da azalmasına kömək edir.



17 PARTNERSHIPS FOR THE GOALS

# MƏQSƏDLƏR ÜÇÜN TƏRƏFDAŞLIQLAR

AZAL Azərbaycanla digər ölkələr arasında sinergiyanın möhkəmlənməsində həlledici rol oynayır. Hava yolu şirkəti kimi fəaliyyətimizdə sıx tərəfdaşlığı və koordinasiyalı səyləri qiymətləndirir və onlara istinad edirik. Beynəlxalq hökumət komissiyalarında iştirakımız dünyanın 30-dan çox ölkəsi ilə iqtisadi və tərəfdaşlıq əlaqələrini asanlaşdırıb. Hesabat dövrü ərzində uğurlu tərəfdaşlığımızın nümunələrinə daxildir:

- AZAL Azərbaycanın hava məkanı vasitəsilə Çini Avropa ilə birləşdirən yeni beynəlxalq aviamarşrutlar açıb.
- AZAL Aeronaviqasiya məlumatlarının Budapeşt və Bakıdakı informasiya saxlama mərkəzləri ilə mübadiləsi üçün Avrasiya rəqəmsal magistralını işləyib hazırlayıb. Çinin “Hainan Airlines” aviaşirkəti ilə uğurlu tərəfdaşlıq quraraq Çinlə əməkdaşlığı daha da genişləndirmişik. Bu əməkdaşlıq vasitəsilə AZAL sərnişinləri artıq “Hainan Airlines” aviaşirkəti vasitəsilə Pekin əsas birləşdirici qovşaq olmaqla Çin üzrə 28 istiqamətə səyahət edə bilərlər.
- AZAL və Türkiyənin Dövlət Hava Limanları Baş İdarəsi (DHMI) SOCEA xidmət təminatçıları arasında aeronaviqasiya təhlükəsizliyinin əlaqələndirilməsi üzrə regional platformanın yaradılması haqqında müqavilə imzalayıblar. Bu təşəbbüs Avropa və Asiya arasında uçuşların təhlükəsizliyinin artırılmasına yönəlib.
- AZAL sərnişin daşımalarına artan tələbatı ödəmək məqsədilə “GetJet Airlines” aviaşirkəti ilə əməkdaşlıq müqaviləsi imzalayıb.
- Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) və AZAL Azərbaycanın milli hava məkanı strategiyasının (NAS) hazırlanması və həyata keçirilməsi üzrə birgə işə başlayıblar.
- AZAL, Azərbaycan Turizm Bürosu və “China Tourism Group” turizm sahəsində strateji tərəfdaşlıq üzrə Üçtərəfli anlaşma memorandumu imzalayıblar.
- AZAL və YAŞAT Fondu arasında Əməkdaşlıq memorandumu imzalanıb.





# MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI ƏLAQƏ

Biz AZAL-da əhəmiyyətli xidmətlər göstərmək, dəyər yaratmaq və işgüzar qərarları maraqlı tərəflərin gözləntilərinə uyğunlaşdırmaq niyyətimizi təsdiqləmək üçün maraqlı tərəflərlə birbaşa qarşılıqlı əlaqəyə üstünlük veririk. Dayanıqlılıq idarəçiliyimizin ayrılmaz hissəsi olan maraqlı tərəflərlə qarşılıqlı əlaqə həm xarici tərəfdaşların, həm də daxili komandaların maraqlarını nəzərə almağımızı təmin edir.

Bütün maraqlı tərəf qrupları ilə hərtərəfli əks-əlaqəni təmin etmək üçün Cədvəl 4-də göstərildiyi kimi müxtəlif qarşılıqlı əlaqə üsullarından istifadə edirik. Bu inklüziv yanaşma dayanıqlı iş təcrübələrimizi və əməliyyat strategiyalarımızı formalaşdıran dialoqu təşviq edərək fərqli perspektivləri və fikirləri toplamağa imkan verir.

| Maraqlı tərəflər qrupu | Qarşılıqlı əlaqə kanalları |
|---|---|
| İŞÇİLƏR | • Təlimlər<br>• Peşəkar inkişaf proqramları<br>• Q-Pulse<br>• Komanda görüşləri<br>• Əks-əlaqə sessiyaları<br>• Dayanıqlılıq hesabatı<br>• Qarşılıqlı əlaqə sorğusu<br>• Funksiyalararası komanda qurma<br>• Yüksək potensiala malik istedadlı əməkdaşlar üçün proqramlar |
| MÜŞTƏRİLƏR | • Çağrı mərkəzləri<br>• E-poçt vasitəsilə əlaqə<br>• Veb-sayt<br>• Açıq qapı günləri<br>• Kənar audit hesabatları<br>• Dayanıqlılıq hesabatı |
| DÖVLƏT ORQANLARI | • Tövsiyələrin və tələblərin yerinə yetirilməsi<br>• Vaxtında keçirilən auditlər<br>• Təlim<br>• Vergi bəyannamələri<br>• Dayanıqlılıq hesabatı |
| TƏCHİZATÇILAR, TƏDARÜKÇÜLƏR VƏ PODRATÇILAR | • Podratçının qiymətləndirilməsi<br>• Gündəlik, aylıq və işdən sonrakı hesabatlar,<br>• İclaslar<br>• Obyekt ziyarətləri<br>• Qəzetlər<br>• Elektron portal<br>• Dayanıqlılıq hesabatı |
| BEYNƏLXALQ STANDARTLAŞDIRMA ORQANLARI | • Tövsiyələrin və tələblərin yerinə yetirilməsi<br>• Vaxtında keçirilən auditlər<br>• Təlim proqramları<br>• Konsultasiya xidmətləri<br>• Dayanıqlılıq hesabatı |
| MALİYYƏ QURUMLARI VƏ İNVESTORLAR | • Kənar audit hesabatları<br>• Dayanıqlı inkişaf hesabatı<br>• Vergi bəyannamələri<br>• Dayanıqlılıq hesabatı |
| YERLİ İCMALAR VƏ QHT-LƏR | • İctimai inkişaf proqramları<br>• Xeyriyyə işləri<br>• İctimai tədbirlərdə sponsorluq<br>• Sosial media<br>• Dayanıqlılıq hesabatı |
| GƏNCLƏR | • Təcrübəçilər<br>• Aparıcı universitetlər və təlim təşkilatları ilə birgə təşəbbüslər<br>• Təlim və təhsil proqramları<br>• Dayanıqlılıq hesabatı |
| MƏTBUAT | • Press-relizlər<br>• Müsahibələr<br>• Rəsmi media platformaları<br>• Bort jurnalları<br>• Dayanıqlılıq hesabatı |

Cədvəl 4. AZAL-ın maraqlı tərəf qrupları və onlarla qarşılıqlı əlaqə üsulları



# MƏSULİYYƏTLİ TƏCHİZAT ZƏNCİRİ

AZAL-da bizim əsas diqqətimiz ətraf mühitə nəzarət və etik prinsiplərə sadiqliyimizlə uyğunlaşan məsuliyyətli və dayanıqlı təchizat zəncirinin yaradılmasıdır. Bizim yanaşmamız təkcə normativ tələblərə riayət etməklə deyil, həm də dəyərlərimizi bölüşən təchizatçılarla möhkəm tərəfdaşlığın inkişafına yönəlib.

2023-cü ildən etibarən AZAL 618-i yerli, 399-u isə xarici olmaqla ümumilikdə 1017 təchizatçıdan ibarət güclü şəbəkə ilə əməkdaşlıq edir. Bu müxtəlif ekosistem əməliyyat ehtiyaclarımızı dəstəkləyir və yerli iqtisadi inkişafa və dünyanın ən yaxşı təcrübələrinin inteqrasiyasına kömək edir.

Satınalma proseslərimiz aviasiya orqanlarının və milli satınalma qanunvericiliyinin müəyyən etdiyi ciddi qaydalara və normativ aktlara tam uyğundur. Satınalma fəaliyyətinə nəzarət edən Müqavilələr şöbəmizin mərkəzləşdirilmiş rəhbərliyi altında bütün fəaliyyətlərimizin şəffaflığını və səmərəliliyini təmin edirik. Tender elanları mütəmadi olaraq hökumətin elektron satınalma portalında yerləşdirilir (e-tender.gov.az) ki, bu da tender imkanlarına birbaşa çıxışı təmin edir.

Cədvəl 5-ə əsasən, yerli təchizatçıların payını 50%-dən yuxarı səviyyədə saxlamaqla onlara üstünlük verilməsinə diqqət yetirilərək təchizatçıların sayının artması tendensiyası mövcuddur. Təchizatçıların sayında ümumi artım, bu təchizatçılar tərəfindən göstərilən xidmətlərlə əlavə dəstək tələb edən istiqamətlərin və ümumi reyslərin sayının artması ilə izah olunur.

| Təchizatçıların sayı | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Təchizatçıların ümumi sayı | T/E | 627 | 1017 |
| Yerli təchizatçıların/podratçıların sayı | T/E | 273 | 618 |
| Xarici təchizatçıların/podratçıların sayı | T/E | 354 | 399 |
| Yerli təchizatçıların/podratçıların payı | T/E | 56% | 61% |

Cədvəl 5. Təchizatçıların sayı və payı

Dövlət şirkəti kimi fəaliyyət göstərdiyimiz cəmiyyət qarşısında məsuliyyətimizi dərk edir və cəmiyyətin həm sosial, həm də iqtisadi aspektlərinə müsbət töhfə verməyə çalışırıq. Buna görə də biz həmişə yerli təchizatçılara üstünlük vermişik. Təchizatçıları daxili qaydalarımıza uyğun olaraq diqqətlə qiymətləndirir və şəffaflığa əməl edirik.

AZAL ətraf mühitin mühafizəsinə və etik normalara sadiqliyimizə uyğun olaraq dayanıqlı və məsuliyyətli təchizat zəncirinin qurulmasına çalışır. İqtisadi inkişafı və ən yaxşı təcrübələri dəstəkləyərək həm yerli, həm də beynəlxalq təchizatçılarla güclü tərəfdaşlıqları inkişaf etdirməyə çalışırıq. Satınalma proseslərimiz ciddi qaydalar və şəffaflıqla tənzimlənir, fəaliyyətlərimizdə və ictimaiyyətə verdiyimiz töhfələrdə davamlı təkmilləşməyə və daha çox inkişafa diqqət yetirilir.

# STRATEJİ PRİORİTETLƏRİMİZ

AZAL-da dayanıqlılığa sadiqlik bizim uzunmüddətli strateji baxışımızın əsasını təşkil edir. Mükəmməllik, yenilik və məsuliyyət kimi fundamental prinsiplərimizə əsaslanaraq, uzunmüddətli inkişafı, eləcə də aviasiya sektoruna və xidmət etdiyimiz cəmiyyətlərə təsirimizi artırmağa kömək edən əsas fəaliyyət sahələrini müəyyən etmişik. Əsas strateji prioritetlərimiz bunlardır:

## .01 DAYANIQLI İNKİŞAF VƏ BİZNESİN MÜKƏMMƏLLİYİ

AZAL-da biz qlobal resursların məhdud miqdarda olduğunu anlayaraq ekoloji dayanıqlığa üstünlük veririk. Yanacağa qənaət edən hava gəmilərinə fəal şəkildə sərmayə yatırmaqla, uçuşların icrasını optimallaşdırmaqla və ekoloji cəhətdən təmiz aviasiya yanacağından istifadəni dəstəkləməklə karbon ($CO_2$) emissiyalarını azaltmaq üçün məqsədyönlü səylər də daxil olmaqla, istixana qazı emissiyalarını minimuma endirməyə çalışırıq. AZAL-ın öhdəliyi fəaliyyətimizin bütün aspektlərində dayanıqlı təcrübələrin təbliğinə də şamil olunur. Məqsədimiz gələcək nəsillər üçün təbii ehtiyatların qorunmasını təmin etməklə ekoloji göstəricilər baxımından sənayedə lider olmaqdır.

## .02 MÜŞTƏRİ MƏMNUNİYYƏTİ

Strategiyamız ən yaxşı müştəri təcrübəsini təmin etmək məqsədi daşıyır. Məqsədimiz müstəsna xidmət göstərməklə, qabaqcıl texnoloji həllər tətbiq etməklə və işimizin səmərəliliyini daim artırmaqla sərnişinlərin gözləntilərini aşmaqdır.

## .03 BRENDİN TANINMASI

AZAL-da brendin tanınma səviyyəsinin artırılması əsas strateji prioritetdir. Biz qəbul edirik ki, brendin güclü mövcudluğu müştərilərimiz və maraqlı tərəflərimiz arasında etimad və sədaqət yaratmaq üçün vacibdir. Bu məqsədə nail olmaq üçün kompleks marketinq səylərinə, brend haqqında məlumatların ardıcıl yayılmasına və müstəsna xidmətlərin göstərilməsinə diqqət yetiririk.

## .04 İŞÇİLƏRİN RİFAHI VƏ İNKİŞAFI

Qəbul edirik ki, işçilərimiz ən dəyərli resursdur. Peşəkar irəliləyiş və fərdi inkişaf üçün geniş imkanlar təqdim edərkən, işçilərin sağlamlığının və rifahının qayğısına qalan təhlükəsiz, çoxşaxəli və inklüziv işçi qüvvəsinin formalaşmasına üstünlük veririk.

## .05 MARAQLI TƏRƏFLƏR ÜÇÜN UZUNMÜDDƏTLİ DƏYƏR YARATMAQ

Təşkilatımız uzunmüddətli həyat qabiliyyətini və dayanıqlılığı təmin etmək üçün güclü maliyyə göstəricilərini təmin etməyə çalışır. Diqqətli maliyyə menecmentini tətbiq etməklə, strateji investisiyalar yatırmaqla və bazardakı dəyişikliklərə uyğunlaşmaqla biz maraqlı tərəflərimiz üçün uzunmüddətli dəyər yaratmağa və xidmət etdiyimiz cəmiyyətlərə müsbət təsir göstərməyə çalışırıq.

## .06 SOSİAL TƏSİR

Bizim öhdəliyimiz işlədiyimiz cəmiyyətlərə dəstək olmaqdır. Biz xeyriyyə təşəbbüslərində iştirak etməklə, strateji tərəfdaşlıqlar qurmaqla və könüllü işlərə qatılmaqla məzmunlu töhfələr verməyə çalışırıq. Sosial və iqtisadi inkişafı təşviq edən təhsil, tibbi və mədəni təşəbbüslər vasitəsilə yerli cəmiyyətlərlə fəal şəkildə əlaqə qurur və onlara dəstək veririk.

Bu strateji prioritetlərə davamlı riayət etməklə AZAL təkcə liderlik mövqeyini qoruyub saxlamır, həm də dayanıqlı aviasiya sahəsində yeni standartlar müəyyən etməyə davam edir, müsbət dəyişiklikləri təşviq edir və mükəmməllik və dayanıqlılığın vəhdət təşkil etdiyi gələcəyi formalaşdırır.



# İDARƏETMƏ

# KORPORATİV İDARƏETMƏMİZ

Dayanıqlı gələcəyə can atan AZAL etibarlı rəhbərliyə böyük diqqət yetirir. Qapalı Səhmdar Cəmiyyət kimi AZAL və onun törəmə müəssisələri mərkəzləşdirilmiş idarəetmə çərçivəsində fəaliyyət göstərirlər. İdarəetmə strukturumuz dürüstlük, şəffaflıq və etibarlılıq prinsiplərinə əsaslanır ki, bu da bu əsas dəyərlərə ciddi riayət etməklə hədəflərə çatmaq üçün göstərdiyimiz səylərə istiqamət verir.

Prezidentin rəhbərlik etdiyi və vitse-prezidentlər tərəfindən dəstəklənən İdarə Heyəti Şirkətin müxtəlif sahələrinə nəzarət etmək məsuliyyətini öz üzərinə götürür. AZAL nizamnamə tələblərinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən səlahiyyət verilmiş, mütəmadi olaraq iclaslar keçirən İdarə Heyətinin rəhbərliyi altında səmərəli və effektli fəaliyyət göstərir. Bu idarəetmə modeli fəaliyyətimizin bütün aspektlərinə hərtərəfli nəzarəti təmin edir. Beləliklə, AZAL-ın Şirkətin fəaliyyətinin xarakterinin müəyyənləşdirilməsinə cavabdeh olan müxtəlif idarələri var. İnsan resursları, Maliyyə və Mühasibat uçotu, Satınalma İdarələri və s. idarələr Şirkətin fasiləsiz iş prosesinə cavabdehdir. Fəaliyyətin texniki aspektlərinə cavabdeh olan Aviasiya Təhlükəsizliyi Baş İdarəsi və "Azəraeronaviqasiya" HHİ kimi idarələr də idarəetmə strukturunun əsas komponentləridir. AZAL-ın bütün İdarələri birbaşa şirkətin prezidentinə hesabat verir.

Bundan əlavə, AZAL etibarlı idarəetməni təmin etmək və əsas fəaliyyət sahələrinə vacib nəzarəti həyata keçirmək üçün Audit komitəsi yaradıb. Şirkətin Audit komitəsi birbaşa Müşahidə Şurasına hesabat verir və Əmək haqqı komitəsi ilə sıx əməkdaşlıq edir. Bu Komitə şirkətin hesabat proseslərinə, daxili nəzarət tədbirlərinə, komplayens və risklərin idarə edilməsinə nəzarət etməklə Müşahidə Şurasına dəstək verməkdə əsas rol oynayır. Ümumiyyətlə, Audit komitəsinin töhfəsi İdarə Heyətinin strateji qərarlarına əhəmiyyətli dərəcədə təsir göstərir.

İdarəetmə strukturu haqqında daha ətraflı məlumat Şəkil 2-də verilmişdir.

Rəhbərlik mühüm biznes təşəbbüslərini, müqavilələri, müştəri xidmətinin yaxşılaşdırılmasını, peşə sağlamlığı və əməyin mühafizəsi tədbirlərini, insan resursları prinsiplərini və digər aktual məsələləri

Şəkil 2. AZAL-ın idarəetmə strukturu




müzakirə etmək üçün hər həftə İdarə Heyətində bir araya gəlir. Bu birgə səy vahid qərar qəbuletməni və fəaliyyətin səmərəliliyini təşviq edir.

Şəffaflığı və normativ tələblərə riayət olunmasını təmin etmək üçün AZAL-ın hökumətin təsdiq etdiyi Nizamnamədə göstərilən qanunvericilik tələblərinə ciddi riayət edən müstəqil Daxili Audit İdarəsi fəaliyyət göstərir. Bu İdarə maliyyə, hüquqi və əməliyyat prosedurlarına ciddi nəzarət edir. Dövlət müəssisəsi olan Şirkətimiz Azərbaycanda mülki aviasiyaya görə məsuliyyət daşıyan əsas orqan olan Dövlət Mülki Aviasiya Agentliyinin nəzarəti altında fəaliyyət göstərir. Agentlik, xüsusilə təhlükəsizlik standartları və əməliyyat protokolları ilə bağlı milli siyasət və qaydalara riayət olunmasını təmin edir.



# İQTİSADİ TƏSİRİMİZ

Hesabat dövründə AZAL çətin qlobal şəraitə tab gətirmə və bu şəraitdə inkişaf etmə qabiliyyətini nümayiş etdirərək əhəmiyyətli iqtisadi təsirini qoruyub saxlayıb. Bizim fəaliyyətimiz nəinki Azərbaycanın iqtisadi rifahını möhkəmləndirdi, həm də regional qarşılıqlı fəaliyyətə və inkişafa öz töhfəsini verdi.

2022-ci ildə gəlirlərin artmasına səbəb olan əksər göstəricilərdə nəzərəçarpacaq dərəcədə yaxşılaşma oldu. Bu inkişaf ilk növbədə reyslərin, istiqamətlərinin sayının, eləcə də bəzi istiqamətlərə reyslərin müntəzəmliyinin artması ilə bağlı idi. Nəticədə AZAL-ın gəlirləri 133,85% artaraq 1,149,954 min manata çatıb.

Gəlir və Şirkətin əməliyyatları arasındakı əlaqə RPK (kilometr/sərnişin üzrə gəlir) göstəricisində görünür. RPK aviaşirkətin gəlirləri ilə birbaşa əlaqəli olan aviasiya sənayesində əsas icra göstəricisidir. Ödənişli sərnişinlərin qət etdiyi ümumi məsafəni ölçməklə RPK göstəricisi aviaşirkətin fəaliyyətinin səmərəliliyi və bazardakı tələbat haqqında fikir formalaşdırır.

RPK və gəlir arasındakı birbaşa əlaqə Cədvəl 6-da göstərilmişdir. Qeyd etmək vacibdir ki, gəlir artımı əsasən sərnişinlərin, reyslərin və istiqamətlərin artması ilə əlaqədardır. Bundan əlavə, bu, Şirkətin lazımsız xərcləri azaltmaqla və resursları daha səmərəli şəkildə yenidən bölüşdürməklə fəaliyyətin səmərəliliyini artırmaq qabiliyyəti ilə sıx bağlıdır.

Bu yanaşma, əlavə texniki baxış tələb edən köhnəlmiş hava gəmilərinin daha böyük tutumlu və yanacağa qənaət edən yeni modellərlə əvəz edilməsinə yönəlmiş təyyarə parkının təkmilləşdirilməsi strategiyamızda əks olunub.

| İstismar | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Ödənişli oturacaq sayı km-lə (RPK) | 1,464 | 3,360 | 4,738 |
| Sərnişinlərin ümumi sayı | 1,124,632 | 2,243,569 | 2,905,457 |
| Yaradılan iqtisadi dəyər, min. | 491,750 | 1,149,954 | 1,473,161 |

Cədvəl 6. Kilometr/sərnişin üzrə gəlir

Bu təcrübələr Şirkətin maliyyə göstəricilərinə müsbət təsir edir və biz bu strategiyaların həyata keçirilməsini davam etdirmək niyyətindəyik.

# KOMPLAYENS, DÜRÜSTLÜK VƏ ETİK DAVRANIŞ

AZAL rəhbərliyi işgüzar dürüstlüyü qorumağa və normativ standartlara riayət etməyə çalışır. Əməliyyatlarımız yerli qanunvericiliyin tələblərinə və ən yüksək qlobal standartlara cavab verir ki, bu da onun müvafiq şəkildə planlaşdırılmasını, həyata keçirilməsini, tənzimlənməsini, monitorinqini və nəzarətini təmin edir. Bu standartlara riayət etmək rəqabətli və təhlükəsiz aviasiya şirkətinə çevrilmək niyyətimizi həyata keçirmək baxımından çox vacibdir.

İstəklərimizdən biri müxtəlifliyə hörmət edən və ayrı-seçkilik və qısnama olmayan iş mühiti yaradan inklüziv mədəniyyəti qoruyub saxlamaq və gücləndirməkdir. Etik davranış birinci dərəcəli xidmətlərin göstərilməsi və ədalətli və çoxşaxəli iş mühitinin yaradılması kimi məsələləri əhatə edən, yeni işçilər üçün keçirdiyimiz tanışlıq təliminin əsas mövzusudur. Davranış kodeksi, Korporativ mədəniyyət və Korporativ təlimat AZAL - ın etik prinsipləri dəstəkləmək və Şirkətin dürüstlüyünü qorumaq üçün istifadə etdiyi üç sənəddir. Bu nəşrlər məqbul davranış, iş yerindəki qaydalar, işə münasibət və digər müvafiq mövzuları nəzərdən keçirməklə əməkdaşlarımızın bu qaydalara əməl etməsini, eləcə də mehriban və təhlükəsiz mühitdə fəaliyyət göstərməsini təmin edir.

AZAL-ın bütün işçiləri Şirkətin dürüstlüyünü qoruyan Davranış kodeksinə, Korporativ mədəniyyətə və Korporativ təlimata riayət etmək məsuliyyəti daşıyır.

Xüsusilə bronlaşdırma prosesində müştəri məlumatlarının məxfiliyini və təhlükəsizliyini təmin etmək üçün AZAL qabaqcıl şifrələmə, çoxfaktorlu autentifikasiya və təhdidlərin daimi monitorinqindən istifadə edən təhlükəsizlik protokollarını tətbiq edir. Veb-saytımız və mobil tətbiqetmələrimiz dünya səviyyəli məlumatların qorunması imkanları ilə tanınan “Microsoft Azure” bulud infrastrukturuna yerləşdirilib. “Azure” infrastrukturu potensial sızmalardan etibarlı qoruma təmin edir.

"Azure" məlumatların məxfiliyi siyasətləri haqqında daha ətraflı məlumat üçün "Azure" Məxfilik məlumatlarına baxın.

Sərnişin xidməti sisteminə (PSS) gəldikdə, müştəri məlumatları yüksək təhlükəsizlik standartları ilə tanınan aparıcı sistem olan Amadeus-a veb-xidmətləri vasitəsilə ötürülür. Bu sistemdəki onlayn tətbiqlər PCI v4-ə uyğundur və çox faktorlu autentifikasiyanı dəstəkləyir. Onlayn rejimdə əlçatan olmayan tətbiqlər üçün nəzərdə tutulan əlavə təhlükəsizlik tədbirlərinə VPN tunelləri və şirkət daxilində məhdud sayda LSS administratorları tərəfindən tənzimlənən giriş daxildir. İstifadəçi girişi də yerinə yetirilən xüsusi funksiyalardan asılı olaraq səviyyələrə əsaslanır.

Bundan əlavə, etik standartlara möhkəm bağlılığımız sayəsində bir neçə daxili və kənar hesabat kanalı yaratmışıq. Daxilidə işçilər Q-Pulse kommunikasiya texnologiyamızdan istifadə edərək problemləri aidiyyəti orqanlara elektron şəkildə bildirə bilərlər. Ofisimizdə yazılı müraciətlər üçün irad və təklif qutuları da yerləşdirmişik. Xarici səviyyədə müxtəlif kanallar vasitəsilə müştəri problemlərinin həlli ilə məşğuluq. Maraqlı tərəflərin qeydiyyatdan keçə biləcəyi rəhbərliklə görüşlər üçün mütəmadi olaraq açıq qapı günləri keçiririk və müştərilərə sosial şəbəkə profillərimiz vasitəsilə bizimlə əlaqə kanallarını təqdim edirik. Müştərilər şikayətlərini callcenter@azal.az ünvanı və ya veb-saytımız vasitəsilə elektron poçtla da göndərə bilərlər. Dayanıqlılıq hesabatımız açıqlığa sadiqliyimizi əks etdirən, maraqlı tərəflərlə şəffaf qarşılıqlı əlaqəyə bağlılığımızı göstərir. Bundan əlavə, tələblərin yerinə yetirilməsini təmin etmək və fəaliyyətimizin şəffaflığını artırmaq üçün müntəzəm auditlər keçirən mötəbər aviasiya assosiasiyaları tərəfindən müəyyən edilmiş təlimatlara da əməl edirik.

AZAL rəhbərliyi işgüzar dürüstlüyü qorumağa və normativ standartlara riayət etməyə çalışır. Əməliyyatlarımız yerli qanunvericiliyin tələblərinə və ən yüksək qlobal standartlara cavab verir ki, bu da onun müvafiq şəkildə planlaşdırılmasını, həyata keçirilməsini, tənzimlənməsini, monitorinqini və nəzarətini təmin edir.



AZAL hazırda şirkətin biznes strategiyasına və dəyişən vergi qanunvericiliyinə daha da uyğunlaşdırılmaq üçün təkmilləşdirilən rəsmi vergi siyasətinə riayət edir. Vergi siyasətimiz ümumi biznes strategiyamıza sıx inteqrasiya edib və fəaliyyətimiz üçün potensial nəticələrə səbəb ola biləcək hər hansı vergi dəyişikliyinin lazımi qaydada nəzərə alınmasını təmin edir. Vergi məsələlərini strateji vergi idarəçiliyimizin əsasını təşkil edən etibarlıl Vergi risklərinin təhlili prosesi ilə tənzimləyir və nəzarət edirik. Vergi meneceri bu tələbləri yerinə yetirməyə görə məsuliyyət daşıyır.

Vergi riskləri həm cari, həm də gələcək prosedurların hərtərəfli təhlili əsasında müəyyən edilir, idarə olunur və izlənilir. Vergi şöbəsi risk səviyyəsini qiymətləndirir və bu riskləri azaltmaq və ya idarə etmək üçün lazımi tədbirlər barədə qərar verir. Vergi orqanları ilə qarşılıqlı əlaqəmiz əsasən vaxtaşırı təqdim etdiyimiz hesabatların uzaqdan müzakirəsindən ibarətdir və lazım olduqda vacib məlumatları əldə etmək üçün rəsmi məktub mübadiləsi aparırıq.

Biz AZAL-da vergi idarəçiliyimizə potensial təsirini müəyyən etmək üçün dövlətin vergi siyasətindəki dəyişiklikləri və yenilikləri diqqətlə qiymətləndiririk. Bu qiymətləndirməyə əsasən, strategiyamıza müvafiq vergi mülahizələrini daxil edir, yanaşmamızın aktiv qalmasını və vergi qanunvericiliyindəki son dəyişikliklərə uyğun olmasını təmin edirik.



| STRUKTUR VAHİD | AUDİT |
| --- | --- |
| “Azərbaycan Hava Yolları” aviaşirkəti | IOSA, SKYTRAX |
| AZANS | USOAP, ISO |
| AZAL Akademiyası | IAC INTERSOCIETAL ACCREDITATION COMMISSION |
| GYD Aeroportu | SKYTRAX |
| AZAL-ın struktur bölmələri qrupu | ICAO, IATA, EASA European Union Aviation Safety Agency, Federal Aviation Administration |

Cədvəl 7. Struktur vahidlər üzrə Audit təşkilatları

# İŞÇİLƏRƏ QAYĞI



# İŞÇİLƏRİN İNKİŞAFI

AZAL bir sıra strateji təşəbbüslər vasitəsilə işçi qüvvəsinin və işəgötürənlərin brendinqinin yaxşılaşdırılmasına dair hərtərəfli öhdəlik nümayiş etdirir. Bu səylər yalnız işçilərin işə qəbulu və uyğunlaşma proseslərini gücləndirmir, həm də daha geniş korporativ məsuliyyət və daha yaxşı əməliyyat səmərəliliyi hədəflərinə uyğundur.

2022-ci ildə AZAL işə qəbul prosesini optimallaşdırmaq üçün yeni Namizədi izləmə sistemini (ATS) tətbiq etməklə xeyli irəliləyiş əldə edib. Bu sistem namizədlərin səmərəli idarə edilməsinə şərait yaradır və ümumi işə qəbul təcrübəsini artırır. Bundan əlavə, ilk "Açıq Karyera Günü" tədbirinin keçirilməsi potensial namizədlərə şirkətlə yerindəcə birbaşa əlaqə saxlamağa imkan verməklə işə qəbula innovativ yanaşmanı təmin etdi və bununla da seçim və yerləşdirmə prosesini sürətləndirdi.

Müxtəlif karyera yarmarkalarında və forumlarda fəal iştirakı sayəsində işəgötürən kimi AZAL-ın brendinqi xeyli güclənib. Bu iş işəgötürən kimi AZAL-ın nüfuzunu artırmaqla yanaşı, bir çox istedadlı mütəxəssisləri də cəlb edib. İşəgötürən brendini təkmilləşdirməklə AZAL öz dəyərlərini və imkanlarını potensial namizədlərə effektiv şəkildə çatdırıb.

Təşkilat daxilində Uçuş heyəti və bort bələdçiləri, Regional hava limanının işçiləri və CAMO (Davamlı Uçuşa Yararlılığı İdarəetmə Təşkilatı) Texniki heyət kimi əsas vəzifələrə işə qəbul prosesinə xüsusi diqqət yetirilir. Belə məqsədyönlü yanaşma ən yüksək ixtisas standartlarına cavab verən və AZAL-ın fəaliyyət çərçivəsinə uyğun insanların məsul vəzifələrə təyin olunmasını təmin edir. Məsələn, Füzuli və Zəngilanda regional hava limanlarının əməkdaşları üçün unikal yerli tələbləri nəzərə alan və regional ehtiyaclara uyğunluğu təmin edən xüsusi işə qəbul strategiyaları tətbiq edilib.

İş imkanlarının şəffaflığını və əlçatanlığını artırmaq üçün AZAL Karyera səhifəsini yenidən qurub və onun məzmununu yeniləyib. Yeni veb-saytın dizaynı və təkmilləşdirilmiş məzmunu AZAL-da mövcud vakansiyalar və işin üstünlükləri barədə daha aydın təsəvvür yaradır. Bundan əlavə, vakansiyaları paylaşmaq və şirkətin mədəniyyəti ilə tanış olmaq üçün sosial şəbəkə kanallarından, o cümlədən "AZAL-da həyat" kanallarından istifadə olunub ki, bu da potensial namizədlərin daha da cəlb olunmasına şərait yaradıb. AZAL-da əməkdaşların inkişaf üsullarına baxış və onların üstünlükləri Şəkil 3-də göstərilmişdir.




Şəkil 3. 2023-cü il üçün işçilərin göstəriciləri

# İŞÇİLƏRİN İNKİŞAFINA BAXIŞ

## YAXŞILAŞDIRILMIŞ İŞƏ QƏBUL SƏMƏRƏLİLİYİ

Yeni ATS-in tətbiqi və “Açıq karyera günləri” tədbirinin təşkili işə qəbul prosesini sürətləndirir, işə qəbul müddətini azaldır və namizəd seçiminin keyfiyyətini artırır.



## GÜCLƏNDİRİLMİŞ İŞƏGÖTÜRƏN BRENDİNQİ

Karyera səhifəsinin yenidən qurulması ilə yanaşı, karyera yarmarkalarında və forumlarında aktiv iştirak AZAL brendinin nüfuzunu artırır və ən yaxşı istedadları cəlb edir.



## İSTEDADLARIN MƏQSƏDYÖNLÜ ŞƏKİLDƏ CƏLB EDİLMƏSİ

Əsas vəzifələr və regional işçilər üçün xüsusi işə qəbul strategiyaları vacib vəzifələri xüsusi əməliyyat ehtiyaclarına cavab verən yüksək ixtisaslı şəxslərin tutmasını təmin edir.



## YÜKSƏK ŞƏFFAFLIQ

Yenilənmiş Karyera səhifəsi və sosial şəbəkədə gücləndirilmiş mövcudluq iş imkanlarının daha asan görünməsinə səbəb olur və namizədlərdə AZAL-ın iş mühiti və dəyərləri barədə aydın təsəvvür yaradır.




## MÜXTƏLİF İSTEDADLI İŞÇİ EHTİYATI

Müxtəlif işə qəbul kanallarından istifadə etməklə və işəgötürənin brendinqini gücləndirməklə AZAL müxtəlif namizədləri cəlb edərək daha inklüziv və innovativ işçi qüvvəsinə töhfə verir.



# AZAL AKADEMİYASI

AZAL-ın törəmə şirkəti olan Milli Aviasiya Akademiyası Azərbaycanın aviasiya sənayesi üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına sadiqliyimizin nümunəsidir. Uzun illər ərzində Akademiya təlim üçün həm yerli, həm də beynəlxalq mütəxəssisləri cəlb edən regionun aparıcı təhsil müəssisəsinə çevrilib.

Akademiya, ilk növbədə Mülki Aviasiya və AZAL tərəfindən müəyyən edilmiş digər sahələrə yönəlmiş ali, peşə-texniki və ixtisaslaşdırılmış peşə təhsili üçün müxtəlif proqramları təklif edir.

Yüksək akademik xidmət standartlarımızı qorumaq üçün Akademiya professor-müəllim heyətini diqqətlə seçməklə, mühazirəçilərdən xüsusi təlim keçmələrini tələb edir. Bu yanaşma tələbələrimizin ən yüksək səviyyəli təhsil almasını təmin edir. Akademiyamızda tələbələri sənaye problemləri üçün bənzərsiz həllər hazırlamağa həvəsləndirərək yeniliyi və tənqidi düşüncəni təşviq edən mühit yaradırıq.



## MAA-DA APARILAN ELMİ TƏDQİQATIN ƏSAS SAHƏLƏRİ

- Yerüstü komplekslərin, işəsalma avadanlıqlarının, hava gəmilərinin və onların sistemlərinin istismarı
- Hava nəqliyyatının istismarı
- Sərt cisimli elektronika, radio-elektron komponentlər, mikro və nano-elektronika
- Hava məkanının uzaqdan araşdırılması
- Radiotexnika, radionaviqasiya, radiolokasiya, televiziya sistemləri və cihazları
- Sistemin təhlili, idarə edilməsi və məlumatların işlənməsi (ərazilərə görə)
- Təbii mühitə, maddələrə, materiallara və məhsullara nəzarət etmək üçün cihazlar və üsullar
- Nəqliyyat prosesini idarəetmə
- Naviqasiya və hava hərəkətini idarəetmə
- Sahə iqtisadiyyatı
- Konstitusiya hüququ, Bələdiyyə hüququ
- Mülki hüquq: Biznes hüququ; Ailə hüququ; Beynəlxalq xüsusi hüquq

Şəkil 5. MAA-da elmi tədqiqatların əsas istiqamətləri

Bundan əlavə, bir neçə akademik sertifikat və akkreditasiya ilə ciddi keyfiyyət təminatı prosesinə riayət edirik. Bunlardan biri 2022-ci ilin oktyabr ayında yenilənniş IATA İnstitutunun akkreditasiyasıdır. Bu akkreditasiya aviasiya sektorunda beynəlxalq təlim standartlarına riayət olunmasını təsdiq edir.

Akademiya təhsil proqramları ilə yanaşı, AZAL-ın və digər aviaşirkətlərin uçuş ekipajının peşəkar təlim təminatçısı qismində də çıxış edir. Məcburi təlim sessiyaları karyera inkişaf sistemimizin ayrılmaz hissəsidir və işçilərə ən yüksək keyfiyyətli təlim imkanlarına çıxış imkanı verir. Buraya qabaqcıl tam uçuş simulyatorlarımız (FFS) və uçuş simulyatorlarımız (FS) vasitəsilə pilotların geniş təlim və sertifikatlaşdırılması daxildir.

AZAL Milli Aviasiya Akademiyasının strukturu çərçivəsində bütün dünyada mülki aviasiya sahəsində təhsil müəssisələri ilə beynəlxalq əməkdaşlıqda fəal iştirak edir. Akademiya MDB, Latviya və Litvanın Mülki Aviasiya üzrə Təhsil Müəssisələri Assosiasiyasının tamhüquqlu üzvüdür. Aerokosmik elm və texnikanın müasir nailiyyətlərinə uyğun mütəxəssis və elmi kadrların hazırlanmasına yönəlmiş elmi iş Akademiyanın əsas fəaliyyət istiqamətidir. Bu vahid yanaşma ilə birləşmiş sistem olaraq Akademiyanın təhsil, tədqiqat və innovasiya potensialından istifadə edilir.Akademiya tədqiqat və innovasiya fəaliyyətini davam etdirmək üçün müxtəlif dövlət və beynəlxalq proqramlarda, qrant proqramlarda və müsabiqələrdə iştirak edir. Professor-müəllim heyəti, elmi kollektivlər və tələbələr bu səylərdə fəal iştirak edir, təhsilin keyfiyyətinin və elmi nəticələrin daim yüksəldilməsinə öz töhfələrini verirlər. Buraya Praktiki tədqiqat layihələri, tədris ədəbiyyatının inkişafı və milli və beynəlxalq elmi icmalarda fəal iştirak daxildir.

## MAA-DA ALİ PEŞƏ TƏHSİLİ ALMAQ ÜÇÜN TƏDRİSİN ƏSAS İSTİQAMƏTLƏRİ

Pilotların müasir təyyarə və helikopterlərin uçuş istismarı üzrə hazırlanması

Dispetçerlər və mühəndis-naviqatorlar

Aerokosmik avadanlıqların, təyyarə və raket mühərriklərinin layihələndirilməsi, istehsalı, sınağı və istismarı, təyyarələrin və təyyarə mühərriklərinin texniki istismarı, avionika və idarəetmə sistemləri üçün mühəndislər

Elektronika, radiotexnika, telekommunikasiya, aerokosmik cihaz mühəndisləri

Aerokosmik monitorinq, Hidrometeorologiya, Ekologiya mühəndisləri Aerokosmik informasiya texnologiyaları, proqramlaşdırma, avtomatlaşdırılmış uçuş idarəetmə sistemləri mühəndisləri

Sərnişin və yük daşımalarının idarə edilməsi, hava limanlarının, terminalların və logistika mərkəzlərinin istismarı, o cümlədən nəqliyyat sisteminin təhlükəsizliyini təmin etmək üçün mütəxəssislərin hazırlanması.



## MAA-NIN ELMİ FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDLƏRİ BUNLARDIR:

- Elm və texnologiyanın ən vacib sahələrində yeni biliklərin yaradılması və aparıcı tədqiqat qruplarının inkişafı.
- Yüksək ixtisaslı mütəxəssislər və müəllimlər yetişdirmək üçün təhsilin elmin nailiyyətləri ilə inteqrasiyası.
- Rəqabətli yüksək texnoloji məhsulların, yeni avadanlıq və materialların yaradılması.
- İnnovativ fəaliyyətlərin təşviqi və əqli mülkiyyətin qorunması.
- Dünya elm və təhsil sisteminə inteqrasiya etmək məqsədilə beynəlxalq əməkdaşlığın genişləndirilməsi.
- Korporativ müqavilələr, milli və beynəlxalq qrantlar və xüsusi fondlar kimi büdcədənkənar mənbələr vasitəsilə elmi tədqiqat və inkişaf üçün maliyyənin artırılması.

Kompleks təhsil proqramları, ciddi keyfiyyət standartları və elmi tədqiqatlarda fəal iştirakı ilə Milli Aviasiya Akademiyası AZAL-ın dayanıqlılıq strategiyasında əsas rol oynayır. Yeni nəsil aviasiya mütəxəssislərini yetişdirməklə və innovasiya mədəniyyətini aşılamaqla Akademiya həm AZAL-ın, həm də bütövlükdə cəmiyyətin dayanıqlı tərəqqisinə və inkişafına töhfə verməklə aviasiya sənayesinin ön sıralarında qalmağımızı təmin edir.



# TƏLİMLƏR



Texnoloji tərəqqi və dəyişən siyasi və iqtisadi şərait səbəbindən aviasiya sənayesinin sürətli inkişafına cavab olaraq qabaqcıl bacarıq və bilikləri qorumağa çalışırıq. Təhlükəsizlik və komplayens prinsiplərinə sadiqliyimiz bizi işçilərin inkişafı sahəsində ən yüksək standartlara riayət etməyə təşviq edir.

2022-ci ildə AZANS Almaniyanın “DFS Aviation Services” (DAS) şirkəti tərəfindən hazırlanan müasir Phoenix sistemindən istifadə edərək Zəngilan beynəlxalq hava limanında yeni avtomatlaşdırılmış hava hərəkətini idarəetmə sistemini tətbiq edib. AZANS və DAS nümayəndələri ilə uğurla sınaqdan keçirilmiş bu təkmilləşdirmə uçuşların təhlükəsizliyinin təmin edilməsinə və infrastrukturun bərpasına sadiqliyimizi təsdiq edir.

Komandamızı gücləndirmək üçün işə qəbul və istedadların şaxələndirilməsi üçün bir neçə vacib səy göstərmişik. Bunlara ilk “Yay Təcrübə Proqramı” çərçivəsində Milli Aviasiya Akademiyası ilə tərəfdaşlıq və “Karyera səfirləri” və “ADA Məşğulluq Həftəsi” layihələri çərçivəsində ADA universiteti ilə əməkdaşlıq daxildir. Bundan başqa, aviaşirkətlərin rəhbərliyi və işçiləri üçün ilk komanda qurma tədbirimizə start verdik.

İşçilərin davamlı inkişafını dəstəkləmək üçün uçuş ekipajı üçün məcburi təlim və bort bələdçiləri üçün xüsusi proqramlar da daxil olmaqla bir sıra təhsil proqramları təklif edirik. Sahənin ekspertlərindən ibarət yeni Uçuş Tədris Mərkəzimiz və korporativ geyim norması və yenilənmiş İR elanları kimi daxili kommunikasiya sahəsində təkmilləşmələr möhkəm korporativ mədəniyyətin təşviqinə və hər bir idarənin uğur qazanmasına daha çox kömək edir.

Mükəmməlliyə can atmağımız qabaqcıl texnologiyaların, hərtərəfli tədris proqramlarının və təhsil müəssisələri ilə strateji tərəfdaşlığın həyata keçirilməsində özünü göstərir. Yeni Uçuş Tədris Mərkəzi, daxili kommunikasiya kanalları və Komanda qurma tədbirləri kimi təşəbbüslər güclü korporativ mədəniyyəti qurmağı və işçilərin inkişafını dəstəkləməyi hədəflədiyimizi təsdiqləyir. Bu səylər işçilərimiz sənayenin artan tələblərinə cavab verməsini və dinamik mühitdə inkişaf etməsini təmin edir.



- Avropa lisenziyalarının və sertifikatlarının tələblərinə uyğun olaraq Dispetçerlər (ATCO)
- Azərbaycanın aviasiya qaydalarına və Avropanın lisenziyalaşdırma qaydalarına uyğun olaraq Hava hərəkətinin təhlükəsizliyini təmin etmək üçün elektron vasitələr üzrə personal
- Azərbaycanın aviasiya qaydalarına uyğun olaraq Aviasiya meteorologiya xidmətləri (MET)
- ICAO-nun tələblərinə uyğun olaraq Təhlükəsizliyi idarəetmə sistemi
- Aviasiya qaydalarına uyğun olaraq Aeronaviqasiya informasiya xidmətləri (AIS) üzrə personal
- ICAO-nun tələblərinə uyğun olaraq Hava məkanının səmərəlilik mərkəzi
- Təkmilləşmə kursları

Şəkil 3. AZANS-da məcburi təlim seansları

# SOSİAL İMTİYAZLAR

İşçilərimizin rifahına investisiya qoymaq sadəcə fayda vermək deyil. Bu, onların özləri dəyərli, dəstəklənən və gücləndirilmiş hiss etdikləri iş mühiti yaratmaqdır. İşçilər sağlam və iş şəraitindən məmnun olduqda, daha motivasiyalı və məhsuldar olurlar.

Bu məhsuldarlıq artımı bilavasitə əməliyyatın səmərəliliyinin, müştəri məmnuniyyətinin və nəticədə gəlirliliyin artmasına səbəb olur. Motivasiyalı işçi qüvvəsi, çətin anlarda belə şirkəti irəliyə apara bilən, yenilikçi və möhkəm olması ilə seçilir.

İşçilərin rifahına göstərdiyimiz diqqət uzunmüddətli dayanıqlılıq məqsədlərimizlə sıx bağlıdır. İşçilərimizin sağlamlığına, təhlükəsizliyinə və ümumilikdə rifahına üstünlük verərək məsuliyyət və qayğı mədəniyyətini formalaşdırırıq. 2023-cü ildə bütün komanda üzvləri üçün Könüllü Tibbi Sığorta proqramına start verilməsi bu niyyətimizi göstərir ki, bu da bizim işçilərə hərtərəfli dəstək vermək qabiliyyətimizi artırır. Bu mədəniyyət təkcə daxili əməliyyatlarımıza deyil, həm də müştərilər, tərəfdaşlar və geniş ictimaiyyət ilə qarşılıqlı əlaqələrimizə də şamil edilir. İşçilərin idarə edilməsində dayanıqlı təcrübələr səhiyyə xərclərinin azaldılmasına və şirkətin ümumi əhval-ruhiyyəsinin yüksəldilməsinə kömək edir. Bütün bu amillər birlikdə dayanıqlı inkişaf və əməliyyat mükəmməlliyinə nail olmaq missiyamızı dəstəkləyir.

Mülki aviasiya sistemində 15 ildən çox xidmət göstərən işçilər yubiley yaşına çatdıqdan sonra aylıq bonus alırlar.

İşçilər Azərbaycanın dövlət bayramlarında və Mülki aviasiya işçilərinin peşə bayramlarında hədiyyələr ala bilərlər.

Əsas vəzifələrinə xələl gətirmədən bir neçə vəzifə tutan işçilər öz maaşlarına 50% əlavə ala bilərlər.

Müntəzəm tibbi müayinələr, eləcə də idman və fitness fəaliyyətlərinin maliyyələşdirilməsi

İşçilər və onların ailə üzvləri endirimli aviabiletlər əldə edirlər. Təcrübəli pilotlar və onların ailə üzvləri öz təcrübə səviyyələrinə uyğun xüsusi qiymətlər əldə edirlər.

Uçuş ekipajının sağlamlığı üçün sanatoriya-kurort yollayışları.

İşçilər və onların ailə üzvləri üçün Azərbaycanın istirahət zonalarında qısamüddətli yay istirahətlərinin təklif edilməsi.

İş yerinə və geriyə marşrut xidməti

Cəmiyyət qarşısında məsuliyyətimizi dərk edərək, müxtəlif korporativ sosial məsuliyyət (KSM) tədbirləri vasitəsilə sosial rifahı fəal şəkildə təşviq edirik. Buraya “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə əməkdaşlıq haqqında müqavilə daxildir ki, həmin müqavilə çərçivəsində bu ailələrdən olan uşaqlara və gənclərə beynəlxalq layihələrdə iştirak etmək üçün aviabiletlər təqdim edilir, həmçinin onlar üçün bir sıra təhsil tədbirləri təşkil edilir. “Yaşat” Fondu ilə əməkdaşlıq Memorandumu çərçivəsində şəhid ailələrinin üzvlərinin və veteranların müalicə və təhsil təşəbbüslərində iştirak etmək üçün daşınmasını asanlaşdırmaq üçün onlara aviabiletlər təqdim edirik. “Yaşat” Fondu ilə əməkdaşlıq Memorandumu çərçivəsində şəhid ailə üzvlərinin və veteranların müalicə və təhsil təşəbbüslərində iştirak etmək üçün daşınmasını asanlaşdırmaq üçün aviabiletlər təqdim edirik.

Şəkil 4. AZAL-da sosial imtiyazlar

# MÜXTƏLİFLİK VƏ BƏRABƏR İMKANLAR

Ölkə miqyasında yüksək səviyyəli istedadlar sayəsində inkişaf edən şirkət kimi biz inadla biznes etikamızın əsas aspekti olan bərabər imkanları qorumağa çalışırıq. Bütün insanların AZAL-da irəliləmək və uğur qazanmaq üçün bərabər imkanlara malik olduğu mühit yaratmağa çalışırıq.



AZAL-da biz cins, yaş, əlillik, qaçqın statusu, irq, etnik mənsubiyyət və ya marginallaşma ilə bağlı hər hansı digər amillərə görə qərəzliliyi qadağan edən ayrı-seçkilik əleyhinə ciddi siyasətə riayət edirik. Müxtəliflik və bərabər imkanlar Müxtəlif mənşəli yeni işçiləri cəlb etməklə biz işçi qüvvəmizi geniş bilik və təcrübə ilə zənginləşdiririk. Bu inkişaf və şaxələnmə 8 və 9-cu cədvəllərdə vurğulanıb ki, bu da işçilərimizin sayının əhəmiyyətli dərəcədə artdığını göstərir.

AZAL müxtəlifliyi təşviq edən və qarşılıqlı hörmət və inkişafı təşviq edən sağlam, inklüziv və ayrı-seçkiliyin olmadığı mühit yaratmağa çalışır. Ədalətli işə qəbul təcrübələri, müxtəlifliyin təşviqi və inklüziv mühitin yaradılması ilə iş yerində bərabər imkanlar yaratmağa çalışırıq. Bunu dəstəkləmək üçün işə qəbul prosesində qərəzliliyi aşkar etmək və aradan qaldırmaq üçün işə qəbul üzrə mütəxəssislər üçün təlim keçiririk.

İşçilərin rifahına üstünlük verərək və onların təcrübələrini dəyərləndirərək, pensiya yaşına yaxınlaşan və ya sağlamlıq problemi yaşayan uçuş heyətinin üzvlərinə və bort bələdçilərinə alternativ vəzifələr təklif edirik ki, bu da onlara şirkətə yerüstü vəzifələrdə fayda verməyə davam etmək imkanı verir. Bu yanaşma müxtəlif mənşəli istedadlı insanları cəlb edir və hər bir işçinin təşkilatda inkişaf etməsini və irəliləməsini təmin edir. Sağlam iş mühitinin başqa bir vacib cəhəti işçilər arasında qarşılıqlı anlaşma və dəstəkdir. 2023-cü ildə AZAL aviaşirkətin rəhbərliyi və işçiləri üçün ilk Komanda qurma tədbirini təşkil edib. Müxtəlif mənşəli işçilər iştirak edərək, bir-birlərinə daha sıx bağlanmaq və kollektiv iş və komanda qurma bacarıqlarını inkişaf etdirmək imkanı əldə etdilər. Müxtəliflik və bərabərlik təşəbbüslərinin həyata keçirilməsi şirkətin çərçivəsindən kənara çıxır və KSM fəaliyyətlərində də öz əksini tapıb. Belə tədbirlərdən biri, təşkilat tərəfindən autizm spektr pozuntusu olan insanlar üçün müxtəlif fəaliyyət və layihələrin koordinasiyasını, eləcə də bu səyləri dəstəkləmək üçün aviabiletlərin təqdim edilməsini nəzərdə tutan 2023-cü ildə bağlanmış müqavilədir.

| Kateqoriya | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Cins və kateqoriyalara görə əməkdaşların ümumi sayı** | **5,997** | **2,204** | **5,145** | **1,745** | **5,191** | **1,820** |
| Rəhbər | 584 | 157 | 573 | 128 | 593 | 100 |
| Mütəxəssis | 2,172 | 919 | 1973 | 834 | 2046 | 889 |
| Texnik | 409 | 540 | 747 | 266 | 729 | 216 |
| Digər | 2,832 | 588 | 1,852 | 519 | 1823 | 615 |

Cədvəl 8. Cins və kateqoriyalara görə AZAL əməkdaşlarının sayı

| Kateqoriya | 2021 | | | 2022 | | | 2023 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | <30 | 30–50 | 50< | <30 | 30–50 | 50< | <30 | 30–50 | 50< |
| Yaş kateqoriyalarına görə yeni işçilərin sayı | 119 | 149 | 45 | 302 | 173 | 14 | 401 | 315 | 31 |
| Yaşa görə dəyişdirilən işçi sayı | 511 | 445 | 274 | 466 | 431 | 449 | 532 | 627 | 273 |

Cədvəl 9. AZAL-da yaş kateqoriyalarına görə yeni işçilər və kadr dəyişikliyi

# SAĞLAM VƏ TƏHLÜKƏSİZ İŞ YERİ

Qeyd etmək vacibdir ki, bütün işçilər üçün sağlam və təhlükəsiz mühit yaratmadan bərabər imkanlar yaratmaq mümkün deyil. AZAL-da iş yerində təhlükəsizliyi təmin etmək üçün səmərəli Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi (SƏTƏMM) təcrübələrini tətbiq etmişik. Təhlükəsizlik üzrə təlim proqramlarımıza təhlükəsizlik protokolları, fövqəladə hallarda fəaliyyət prosedurları və avadanlıqlardan düzgün istifadə ilə bağlı müntəzəm sessiyalar daxildir. Bundan əlavə, biz yerli və beynəlxalq normalara uyğun olan kompleks Sağlamlıq və Əməyin Təhlükəsizliyi qaydalarını işləyib hazırlamışıq.



Böyük Britaniya standartlarına uyğun olaraq istehsal edilmiş yüksək keyfiyyətli fərdi mühafizə vasitələri (FMV) təmin edilməklə işçilərin kombinezon, dəbilqə, maska, eynək və qoruyucu ayaqqabı kimi müvafiq geyimlərə, həmçinin qaynaq kimi işlər üçün xüsusi FMV-lərə çıxış imkanı yaradılır. AZAL-ın poliklinikasında əməkdaşların sağlamlıq vəziyyətinə nəzarət etmək üçün mütəmadi tibbi müayinələr keçirilir. Zəruri nəzarət tədbirlərini həyata keçirmək üçün ardıcıl olaraq iş yerindəki potensial təhlükələri müəyyənləşdiririk və riskləri qiymətləndiririk.2023-cü ildə SƏTƏMM və KN İdarəsi işçilərə iş vəzifələrini anlamağa və işçilər arasında qarşılıqlı əlaqəni yaxşılaşdırmağa kömək etmək üçün nəzərdə tutulmuş yeni prosedurlar tətbiq edib. Təhlükəsizlik texnikası standartlarına və qaydalarına riayət olunmasını təmin etmək üçün müntəzəm texniki təhlükəsizlik yoxlamaları və auditlər keçirir və bütün nəticələr qərar qəbul edilməzdən əvvəl izləmə tədbirləri üçün müvafiq bölmələrə bildirilir.

Bu səylər bərabərliyi təşviq etməyin və hər bir işçiyə öz potensialından tam istifadə etmək imkanını verməyin ayrılmaz hissəsi olan təhlükəsiz və dəstəkləyici mühiti yaratmaq niyyətimizi təsdiqləyir. Bundan başqa, AZAL hamının bərabər imkanlara malik olduğu təhlükəsiz və inklüziv mühit yaratmağa çalışır. SƏTƏMM təşəbbüslərimizi irəli sürərək və müxtəlifliyi təşviq edərək, gələcək problemləri həll edə biləcək etibarlı və uzaqgörən işçi qüvvəsi yaratmağa çalışırıq.

Bundan başqa, AZAL hamının bərabər imkanlara malik olduğu təhlükəsiz və inklüziv mühit yaratmağa çalışır. SƏTƏM təşəbbüslərimizi irəli sürərək və müxtəlifliyi təşviq edərək, gələcək problemləri həll edə biləcək etibarlı və uzaqgörən işçi qüvvəsi yaratmağa çalışırıq.



2023-cü ildə KSƏTƏM şöbəmiz işçilərə iş vəzifələrini anlamağa və işçilər arasında qarşılıqlı əlaqəni yaxşılaşdırmağa kömək etmək üçün nəzərdə tutulmuş yeni prosedurlar tətbiq edib.



# MÜŞTƏRİLƏRİMİZ

AZAL-da biz müştərilərimizin fəaliyyətimizə verdiyi töhfəni yüksək qiymətləndiririk. Buna görə də, səyahət boyu sərnişinlərin təhlükəsizliyini, rahatlığını və məmnuniyyətini təmin edərək müstəsna xidmət göstərməyə çalışırıq. Müştəri təcrübəsinə hərtərəfli yanaşmamız müxtəlif aspektləri əhatə edir:

Biz milli və beynəlxalq standartlara riayət etmək üçün ciddi təhlükəsizlik protokollarını tətbiq etməklə və Aviasiya Təhlükəsizlik Baş İdarəsini yaratmaqla müştəri təhlükəsizliyinə üstünlük veririk. Bu İdarə aviasiya təhlükəsizliyi, yanğın təhlükəsizliyi, qəza-xilasetmə işləri və bir çox digər məsələlərlə məşğul olmaqla bütün əməliyyatlarımızın qorunmasını təmin edir.

Regionda dayanıqlı fəaliyyəti dəstəkləmək üçün biz enerjiyə qənaət edən texnologiyaları tətbiq etməyə və bütün müştərilərimiz üçün rahat uçuş şəraiti yaratmaqla Heydər Əliyev Beynəlxalq Aeroportunu Avropa və Asiya arasında əsas nəqliyyat qovşağı kimi saxlamağa çalışırıq.

Rəqəmsallaşma xidmətlərimizin keyfiyyətinin yüksəldilməsinin əsasını təşkil edir. Onlayn bronlaşdırma və e-bilet sifarişi sistemlərimiz rezervasiyaları uyğunlaşdırmaq, bronlaşdırmaları idarə etmək və hərtərəfli uçuş məlumatlarına daxil olmaq üçün geniş imkanlar yaradır. İstifadəsi asan mobil tətbiqlərimiz bütün sərnişinlər üçün əlçatanlığı və rahatlığı təmin edir. “AZAL-Miles” loyallıq proqramımız tez-tez səyahət edən sərnişinləri səyahət balları ilə mükafatlandırmaqla, onlara rəqəmsal platformalarımız vasitəsilə müxtəlif üstünlüklər və asan izləmə imkanı verir. Bundan başqa, aşağıbüdcəli aviaşirkətimiz olan “Buta Airways” loyallıq proqramımıza asanlıqla inteqrasiya edərək hava səyahətini daha çox müştəri üçün sərfəli və əlçatan edir.

## MÜŞTƏRİLƏRİN TƏHLÜKƏSİZLİYİ

Müştərilərimizin təhlükəsizliyini və fərdi məlumatlarının gizliliyini təmin etmək mühüm əhəmiyyət kəsb edir. Biz fərdi məlumatları qorumaq üçün etibarlı təhlükəsizlik tədbirlərini tətbiq edir və təhlükəsiz səyahət təcrübəsini təmin edirik.

## HAVA LİMANLARININ DAYANIQLI İNKİŞAF XİDMƏTLƏRİ

Hava limanlarımızı ekoloji baxımdan dayanıqlı şəkildə istismar etməyə çalışırıq. Yaşıl texnologiyalara investisiya yatırmaqla və ekoloji cəhətdən zərərsiz təcrübələri tətbiq etməklə karbon emissiyalarımızı azaltmaq daha təmiz gələcəyə töhfə vermək niyyətindəyik.

## ONLAYN XİDMƏTLƏR

Bizim istifadəsi asan veb-saytımız və mobil tətbiqimiz biletlərin bronlaşdırılmasından tutmuş rezervasiyaların idarə edilməsinə qədər müxtəlif onlayn xidmətlər təklif edir. Biz texnikadan anlayan müştərilərimizin ehtiyaclarına cavab verən qüsursuz rəqəmsal təcrübə yaşatmağa çalışırıq.

## AZAL MİLES VƏ AŞAĞI BÜDCƏ STRATEGİYASI

Bizim “Azal Miles” loyallıq proqramımız tez-tez səyahət edən sərnişinlərə eksklüziv imtiyazlar və fərdi təkliflər verməklə uzunmüddətli münasibətləri gücləndirir. Hal-hazırda aşağı büdcə strategiyamız keyfiyyətə xələl gətirmədən rəqabətli tarifləri təmin etməklə, hava səyahətini əlçatan edir və mükəmməl qiymət/keyfiyyət nisbətini təklif edir.

Şəkil 5. Müştəri xidmətlərinə yanaşma

# MÜŞTƏRİLƏRİN TƏHLÜKƏSİZLİYİ

Ən yüksək xidmət səviyyəsinə çatmaq üçün müştərilərin təhlükəsizliyini bütün əməliyyatlarımızın əsası hesab edir və fəaliyyətimiz boyunca onların qorunmasını təmin edirik. Təhlükəsizlik tədbirlərini gücləndirmək üçün uçuş-enmə zolağında təhlükəsizlik protokolları müəyyən etmişik və Aviasiya Təhlükəsizlik Baş idarəsini yaratmışıq.

Bu İdarə qanunsuz müdaxilənin qarşısını almaq, müştərilərin təhlükəsizliyini təmin etmək və əməliyyat dayanıqlığını qorumaq üçün milli və beynəlxalq təhlükəsizlik standartlarına riayət edir. O, Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramına və Aviasiya Təhlükəsizliyi Təminatı Qaydalarına riayət etməyə görə məsuliyyət daşıyır. Aviasiya Təhlükəsizlik Baş İdarəsinin funksiyalarına aşağıdakılar daxildir:

- Aviasiya təhlükəsizliyi xidmətləri
- Mühafizə xidmətləri
- Girişə və yerində nəzarət xidmətləri
- Yanğın təhlükəsizliyi və qəza-xilasetmə xidmətləri
- Mülki müdafiə
- Mülki aviasiya təhlükəsizliyi sahəsində video nəzarət

Aviasiya Təhlükəsizlik Baş İdarəsinin yaradılması AZAL-ın bütün əməliyyatlarının dayanıqlı olmasını və təhlükəsizlik tələblərinə cavab verməsini, potensial təhlükələri nəzarətdə saxlamaq üçün daim nəzarət altında olmasını və təkmilləşdirilməsini təmin edir. Bütün dəyər zənciri boyunca müştərilərimizi təhlükəsiyini təmin edir, həmişə məlumatların təhlükəsizliyini artırmağa və fərdi məlumatların istənilən sızmasının qarşısını almağa çalışırıq. Hal-hazırda sistemlərimizi və müştərilərin məlumatlarını qorumaq üçün müxtəlif kibertəhlükəsizlik həllərindən istifadə edirik. Bizim qoruma sistemlərinə daxildir:

## .1

**Məlumatların şifrələməsi:**
Kənar şəxsləri məlumatları asanlıqla əldə edə və ya onlara daxil ola bilməməsi üçün həm ötürmə, həm də saxlama zamanı məlumatları şifrələyirik. Bu, həssas məlumatların məxfiliyini və toxunulmazlığını qorumaq, onları potensial sızmalardan və ya kiberhücumlardan müdafiə etmək üçün çox vacibdir.

## .2

**Təhlükəsizlik divarları:**
Tərəfimizdən təhlükəsizlik divarlarından istifadə şəbəkəmizə icazəsiz girişin qarşısını almaq üçün vacibdir. Gələn və gedən trafikin izlənməsi ilə təhlükəsizlik divarları zərərli təhdidlərə qarşı maneə rolunu oynayır və onlardan yalnız qanuni mesajların keçməsini təmin edir.

## .3

**Müdaxilənin aşkarlanması və qarşısının alınması sistemləri (IDS/IPS):**
Şəbəkəmizi daim izləmək və zərərli fəaliyyətlərdən qorumaq üçün IDS və IPS sistemlərini tətbiq edirik. Bu sistemlər potensial təhdidləri müəyyənləşdirmək və onlara real vaxt rejimində cavab vermək, bununla da məlumat sızmalarının qarşısını almaq və sistemlərimizin toxunulmazlığını təmin etmək üçün vacibdir.

## .4

**Vəzifə əsaslı giriş nəzarət tədbirləri (RBAC):**
RBAC-nin tətbiqi yalnız səlahiyyətli işçilərin həssas məlumatlara daxil olmasını təmin edir. Girişi vəzifə əsasında məhdudlaşdırmaqla, icazəsiz giriş və potensial məlumat sızması riskini minimuma endirməklə, məlumatların ümumi təhlükəsizliyini artırırıq.

## .5

**Çoxfaktorlu autentifikasiya (MFA):**
MFA giriş icazəsi verməzdən əvvəl bir neçə doğrulama formasından keçməyi tələb etməklə daha bir təhlükəsizlik səviyyəsini əlavə edir. Bu, giriş məlumatları pozulsa da, icazəsiz giriş ehtimalını əhəmiyyətli dərəcədə azaldır və bununla da təhlükəsizlik səviyyəmizi gücləndirir.

## .6

**Proqram təminatının və sistemin müntəzəm olaraq yenilənməsi:**
Ən son təhlükəsizlik “yamaq”-larından istifadə edərək proqram təminatını və sistemlərimizi yeniləmək məlum zəifliklərdən qorunmaq üçün vacibdir. Daimi yeniləmələr istismarların qarşısını almağa kömək edir və müdafiəmizin yaranan təhlükələrə qarşı möhkəm qalmasını təmin edir.

## .7

**XDR son nöqtəsini qoruma həlləri:**
Tərəfimizdən XDR son nöqtəsini qoruma həllərindən istifadə serverlərimizi məlumat sıxmalarından qorumaq üçün çox vacibdir. Bu həllər təhdidləri aşkar etmək və onlara cavab vermək üçün qabaqcıl imkanlar yaradır və son nöqtələrimiz üçün hərtərəfli qorunma təmin edir.

## .8

**Veb-tətbiq üçün təhlükəsizlik divarı (WAF) sistemləri:**
WAF sistemləri nəşr olunan tətbiqlərimizi müxtəlif veb-hücumlarından qoruyur. WAF sistemləri veb-tətbiq ilə İnternet arasındakı HTTP trafikini filtrasiya edərək və izləyərək saytlararası skript (XSS) və SQL kodunun tətbiqi kimi hücumların qarşısını alır və bununla da veb-tətbiqlərimizi qoruyur.

Qeyd olunan təşəbbüslərə əlavə olaraq, Məlumat sızmasından qorunma (DLP) və Verilənlər bazası girişinə nəzarət (DAM) həllərinin tətbiqi üzərində fəal aparırıq. Biz həmçinin təhlükəsizlik qaydalarının və prosedurlarının hazırlanması və tətbiqi ilə məşğul olan xüsusi şöbə yaradırıq. Bu təşəbbüslər məlumatlarımızı qorumaq, uyğunluğu artırmaq və hərtərəfli təhlükəsizlik sistemini təmin etmək üçün çox vacibdir.

# HAVA LİMANLARININ DAYANIQLI İNKİŞAF XİDMƏTLƏRİ

Heydər Əliyev Beynəlxalq Aeroportunun daha dayanıqlı obyektə çevrilməsi istiqamətində göstərilən səylər bunun təkcə AZAL-a deyil, bütövlükdə Azərbaycanın aviasiya sənayesinə və milli iqtisadiyyata gətirə biləcəyi faydalardan ilhamlanır. Məqsədimiz Avropa ilə Asiya arasındakı yolların kəsişməsində yerləşən Azərbaycanın strateji mövqeyindən istifadə etməklə "Azərbaycan Hava Yolları" aviaşirkətini qlobal səviyyəyə qaldırmaqdır. Aeroportun müasir infrastrukturu, o cümlədən geniş uçuş-enmə zolağı, kifayət qədər tutumu və yaxşı təchiz olunmuş terminalları bu məqsədi dəstəkləyir..

Geosiyasi hadisələrin yaxından izlənməsi və yeni marşrutların açılması bu transformasiyaya kömək edəcək. AZANS tərəfindən idarə olunan aeronaviqasiya hava hərəkətinin effektiv idarə olunmasını təmin edir, təhlükəsiz və dayanıqlı beynəlxalq uçuşların təmin edilməsi üçün Azərbaycanın hava məkanına etimadı gücləndirir. AZANS həmçinin səmərəliliyi artırmaq və daha çox daşıyıcı cəlb etmək üçün alternativ aviaşirkətləri və marşrutları da araşdıracaq.

Hava limanlarında xidmət və təhlükəsizliyi yaxşılaşdırmaq üçün sərnişinlərimiz və işçilərimiz üçün təhlükəsiz və dayanıqlı mühit yaratmaq üçün bir neçə əsas təşəbbüsü həyata keçirmişik. Fövqəladə vəziyyətə hazırlıq səviyyəsini artırmaq üçün yeni təxliyə planları tətbiq etmişik və qadağan olunmuş əşyaları daha yaxşı aşkar etmək üçün texnologiyanı təkmilləşdirmişik. Təhdid səviyyəsinin qiymətləndirilməsi sisteminin tətbiqi təhdidlər haqqında məlumat əldə etmək üçün 24/7 rejimində xidmət göstərən qaynar xəttimizin dəstəyi ilə potensial təhlükəsizlik təhdidlərinə effektiv reaksiya vermək imkanı yaradır. Biz nəzarət və təhlükəsizlik tədbirlərini gücləndirmək üçün yüksək riskli sərnişinlərin məlumat bazasını yaratmışıq, həmçinin hava limanının işçiləri üçün fövqəladə halların idarə edilməsi və təhlükəsizlik prosedurları üzrə müntəzəm təlimlərin keçirilməsi onların hazır və peşəkar səviyyədə olmasını təmin edir. Sərnişin terminallarının qarşısındakı hərəkət nəzarət sistemləri riskləri azaltmaq və təhlükəsizliyi artırmaq üçün təkmilləşdirilmişdir. Rentgen avadanlıqlarının operatorları üçün xüsusi təlim mərkəzi yaratmışıq, eləcə də sərnişinlər və işçilər arasında məlumatlılıq səviyyəsini artırmaq və təhlükəsizlik qaydalarını riayət olunmasını təmin etmək üçün hava limanı boyunca məlumatlandırıcı materiallar yerləşdirmişik. Yüksək təmas zonalarında təkmilləşdirilmiş təmizləmə və dezinfeksiya prosedurları təhlükəsiz mühitin yaradılmasına daha çox töhfə verir.






Ümumi uçuş saatları

Müştərilərimizin rahatlığını və təhlükəsizliyini təmin etmək üçün bort xidmətlərimizdə müvafiq prinsip və normaları tətbiq edirik. Məsələn, təhlükəsiz iaşə xidmətini təmin etmək üçün Təhlükələrin və Kritik Nəzarət Nöqtələrinin Təhlil (HACCP) prinsiplərinə, Sanitar Norma və Qaydalara (SNIP), habelə Sərnişin və Ekipajın Qida Təhlükəsizliyi üçün Gigiyenik Tələblərə riayət edirik. Qidanın hazırlanması, saxlanması, qablaşdırılması və yüklənməsi prosesi boyunca qida təhlükəsizliyi, sanitariya və gigiyena qaydalarına ciddi nəzarət edilir. Milli kimliyimizi vurğulayan menyumuzda milli yeməklər və içkilər yer alır və bütün yeməklər ətraf mühitə təsirləri minimuma endirmək üçün ən təzə inqrediyentlərdən istifadə edilməklə ISO 22000: Qida Təhlükəsizliyini İdarəetmə standartlarına uyğun hazırlanır.



İrəliyə nəzər salsaq, 2024-2025-ci illər üçün davam edən layihələrimizə Heydər Əliyev Beynəlxalq Aeroportunun 2045-ci ilə qədər təkmilləşdirilməsi strategiyalarını müəyyən edəcək GYD Baş Planının Layihəsi daxildir.

Sərnişin təcrübəsini yaxşılaşdırmaq üçün hər iki terminalda müstəqil qeydiyyat və baqaj təhvil xidmətlərini tətbiq edirik ki, bu da gözləmə müddətini azaldır və növbələri səmərəli şəkildə idarə etmək imkanı verir. Yoxlama müddətini azaltmaq və səmərəliliyi artırmaq üçün yola düşən baqaj yoxlama sahələrindəki tomoqrafiyaları da dəyişdiririk və sərnişinlərə xidmət proseslərini optimallaşdırmaq üçün Transfer zonasını yenidən qururuq. Bundan başqa, dayanıqlılıq səylərimizə hava limanı ərazisində günəş panellərinin quraşdırılması və sərnişinlərə xidmətin səmərəliliyini və müştəri məmnuniyyətini artırmaq üçün biometrik həllərin tətbiqi daxildir. Bundan başqa, biz GYD aeroportunun tutumunu artırmaq üçün uçuş-enmə zolağını yenidən qurur və hava gəmiləri üçün yeni park yerləri inşa edir, həmçinin artan sərnişin sayının öhdəsindən gəlmək və fəaliyyətin səmərəliliyini artırmaq üçün terminallarda təhlükəsizlik işçilərinin sayını artırırıq.

Strateji mövqeyimizdən, müasir infrastrukturumuzdan və innovativ xidmətlərimizdən istifadə edərək, Azərbaycanın dünya aviasiyasında əsas iştirakçı kimi davamlı inkişafını təmin edərək, bütün hava limanlarımızı daha dayanıqlı etməyə çalışırıq.



**YÜKSƏK KEYFİYYƏTLİ İAŞƏ XİDMƏTİ**



**UÇUŞ ZAMANI ƏYLƏNCƏ**



**YAXŞILAŞDIRILMIŞ KABİNƏ RAHATLIĞI**

### Dayanıqlı inkişaf təşəbbüsləri

Heydər Əliyev Beynəlxalq Aeroportu öz xidmətlərini yaxşılaşdırmaq üçün dayanıqlı təşəbbüslər həyata keçirir. Aşağıdakı xidmətlər və imkanlar təmin edilir.

- Terminallarda enerjiyə qənaət edən sistemlərin, o cümlədən LED işıqların və enerjidən səmərəli istifadə edən istilik, havalandırma və kondisionerləşdirmə sistemlərinin tətbiqi.
- Tullantıların təkrar emalı üzrə kompleks proqramlar.
- İşçilər arasında və yerüstü xidmətlər üçün tədricən elektrikli nəqliyyat vasitələrindən istifadəyə keçid, parklanma sahələrində enerji yükləmə stansiyalarının quraşdırılması.
- Havanın keyfiyyətini yaxşılaşdırmaq üçün aeroportun ərazisində yaşıl zonaların genişləndirilməsi.
- Kağız sənəddən istifadəni azaltmaq, eləcə də sərnişinlər və işçilər üçün prosesləri sadələşdirmək məqsədilə Səyahət sənədlərini təsdiqləmə sistemi.

### Sağlamlıq imkanları məhdud olan insanlar üçün mobillik

Heydər Əliyev Beynəlxalq Aeroportu terminal boyunca hərəkət etmək üçün tamamilə maneəsiz ərazidir. Aşağıdakı xidmətlər və imkanlar təmin edilir.

- Səyahət müddətində müşayiət.
- 1-ci Terminalın qarşısında xüsusi park yerləri.
- Daşıma zamanı qarşılama və yardım xidmətləri.
- Terminalda və minik qapısında mobillik üçün əlil arabasının və köməkçilərin təmin edilməsi.
- Hava gəmisinə minmək üçün ambulator lift.
- Sürətləndirilmiş qeydiyyat və uçuşdan əvvəlki yoxlama prosesi.
- Çoxfunksiyalı tualetlər.
- Sağlamlıq imkanları məhdud olan insanlar üçün nəzərdə tutulmuş liftlər.

Şəkil 6. Hava limanında dayanıqlılıq




1. Fərdi seçimlərlə onlayn bronlaşdırma
2. Veb-sayt və mobil tətbiq vasitəsilə elektron bilet sifarişi sistemi
3. Pulsuz onlayn qeydiyyat və bronlaşdırmanı idarəetmə
4. Əlavə baqaj, yemək və yer seçimi imkanları
5. Bronlaşdırmaları izləmək və rəy vermək üçün şəxsi hesablar

Şəkil 7. Onlayn xidmətlərimiz

# RƏQƏMSALLAŞMA

Rəqəmsallaşma hər hansı sənayedə, xüsusən də aviasiyada lider mövqeyini qorumaq üçün çox vacibdir. Bu, evdən aviabiletlərin bronlaşdırılması və tam uçuş məlumatlarına çıxışın zəruri olduğu pandemiya zamanı və daha sonra xüsusilə nəzərə çarpırdı. Buna cavab olaraq xidmətlərimizin rəqəmsallaşdırılmasına üstünlük verdik və bu keçidi asanlaşdırmaq üçün əhəmiyyətli düzəlişlər etdik.

Onlayn bronlaşdırma xidmətlərimiz sərnişinlərə öz bronlaşdırmalarını fərdiləşdirmək və lazımi səyahət məlumatlarını əldə etmək üçün geniş imkanlar təqdim edir. Elektron bilet sifarişi sistemi satış ofislərini ziyarət etmək ehtiyacını aradan qaldıraraq müştərilərə veb-saytımız və mobil tətbiqetməmiz vasitəsilə bilet almaq imkanı verir.

Mümkün qədər çox sərnişinin ehtiyaclarını ödəmək üçün onlayn platformamızı daim təkmilləşdirir və genişləndiririk. "Azərbaycan Hava Yolları" aviaşirkətinin mobil tətbiqi intuitiv dizayna malikdir və bu da istənilən şəxsin aviabiletləri asanlıqla bronlaşdırmasına imkan verir. Platforma xüsusi ehtiyacları olan istifadəçilər üçün əlçatandır və uçuş cədvəldəki dəyişikliklər barədə xəbərdarlıq edir. Müştərilər bronlaşdırmaları izləyə, rəy bildirə və yemək çekləri kimi xidmətlər ala bilərlər. Müştəri yönümlü yanaşmamız bizə rəylərə cavab vermək və təkliflərimizi daim təkmilləşdirmək imkanı verir.

Xidmətlərin rəqəmsallaşdırılması təkcə qlobal tendensiyalarla ayaqlaşmaq deyil. AZAL-da rəqəmsallaşmanın xidmətlərimizin əlçatanlığının artırılmasındakı rolunu anlayırıq. Aviasiya xidmətlərini daha sərfəli və hər kəs üçün əlçatan etmək məqsədilə mövcud xidmətlərimizi daha da rəqəmsallaşdırmağa və yenilərini tətbiq etməyə çalışırıq.

# AZAL MILES

2005-ci ildə istifadəyə verilən "AZAL-Miles" proqramı Azərbaycanda xidmət sektorunda tez-tez səyahət edən sərnişinlər üçün ilk proqram kimi üzvlərimizi səyahət və status xalları ilə mükafatlandırmaq üçün nəzərdə tutulub. Üzvlər "AZAL-Miles" proqramının köməyi ilə "Azərbaycan Hava Yolları" aviaşirkətinin müntəzəm reyslərinə hədiyyə biletlər qazana bilərlər. Proqrama qoşulduqdan sonra bütün üzvlərə proqramda qeydiyyatdan keçərkən yaradılan xüsusi onlayn hesab vasitəsilə proqram daxilində fəaliyyətlərini izləmək imkanı verilir.

Loyallıq proqramımız üzvlərə istifadəsi asan platformamız və mobil tətbiqlərimiz vasitəsilə öz fəaliyyətlərini asanlıqla izləməyə imkan verən mükəmməl onlayn funksionallığa malikdir. Yenilikçi rəqəmsal bilet sifarişi sistemimiz sadiq müştərilərimizin hər dəfə səyahət etdikləri zaman özlərini dəyərləndirilmiş və mükafatlandırılmış hiss etmələrini təmin edir. Uçuşlar üçün millər toplamaqla yanaşı, üzvlər öz üzvlük səviyyələrinə (Classic, Gold və Platinum statuslarına) görə bir sıra üstünlüklərdən də faydalanırlar.

AZALMiles

Şəkil 8. "Azal Miles"-a baxış

### BİRİNCİ SƏVİYYƏLİ ÜZVLÜK

**CLASSIC STATUS**

- Üzvlər biletin əsas qiymətinin hər avrosuna görə (1 avro) 1 səyahət xalı qazanırlar.
- Üzvlərə virtual üzvlük vəsiqəsi verilir.
- 800 status xalı qazandıqda növbəti üzvlük ili ərzində statusunun "Gold"-a yüksələcək

### İKİNCİ SƏVİYYƏLİ ÜZVLÜK

**GOLD STATUS**

- Üzvlər biletin əsas qiymətinin hər avrosuna görə (1 avro) iki səyahət xalı qazanırlar.
- Üzvlərə əlavə imtiyazlar qazandıran "Gold" virtual üzvlük vəsiqəsi verilir.
- Üzvlər öz statusunu saxlamaq və ya yüksəltmək üçün üzvlük ili ərzində tələb olunan status xallarını qazanmalıdırlar.
- Kifayət qədər status xalları toplandıqda Gold üzvlər avtomatik olaraq Platinum üzvlüyə yüksəlir, əks halda isə Classic statusa düşürlər.

### ÜÇÜNCÜ SƏVİYYƏLİ ÜZVLÜK

**PLATINUM STATUS**

- Üzvlər biletin əsas qiymətinin hər avrosuna görə (1 avro) 3 səyahət xalı qazanırlar.
- Üzvlərə əlavə imtiyazlar qazandıran "Platinum" virtual üzvlük vəsiqəsi verilir.
- Üzvlər öz statusunu saxlamaq üçün iki üzvlük ili ərzində tələb olunan status xallarını qazanmalıdırlar.
- Kifayət qədər status xalları toplamayan Platinum üzvlər Gold statusa düşürlər.

# AŞAĞI BÜDCƏ STRATEGİYASI

Səyahətləri əhalinin daha geniş seqmenti üçün daha sərfəli və əlçatan etmək tendensiyası hava səyahətində də özünü göstərir. Sadə və əlçatan səyahət variantları təklif edən aşağıbüdcəli “Buta Airways” brendi bu dəyişikliyə nümunədir.

Qlobal miqyasda, fəaliyyətin səmərəliliyini artırmaq, qlobal rəqabət qabiliyyətini gücləndirmək, xərcləri azaltmaq və sinergiya və yenilik imkanlarını artırmaq üçün aşağıbüdcəli daşıyıcıları əsas şirkətlər ilə birləşdirmək tendensiyası mövcuddur. Bu tendensiyaya əməl edərək 2023-cü ilin oktyabr ayında “Buta Airways” aviaşirkəti şirkətin ümumi səmərəliliyini artırmaq üçün AZAL ilə birləşib. Bu birləşmə hər iki aviaşirkətin güclərini birləşdirir və sərnişinlərimiz üçün sərfəli qiymətlərlə səyahət imkanlarını artırır. Bu həm də müştərilərimizin səyahətlərini rahat planlaşdırmasını və yüksək səviyyəli xidmətdən zövq almasını təmin edir. Birləşmə nəticəsində “Buta Airways” aviaşirkətinin bütün reysləri AZAL brendi altında həyata keçiriləcək ki, bu da mövcud sərfəli qiymətləri saxlamaqla daha yüksək xidmət səviyyəsini təmin etməyə imkan verəcək.




Birləşmə nəticəsində “Buta Airways” aviaşirkətinin bütün reysləri AZAL brendi altında həyata keçiriləcək ki, bu da mövcud sərfəli qiymətləri saxlamaqla daha yüksək xidmət səviyyəsini təmin etməyə imkan verəcək.

Buta Airways



# EKOLOJİ MƏSULİYYƏT

AZAL olaraq anlayırıq ki, dayanıqlı inkişafa nail olmaq təkcə emissiyaların azaldılmasını deyil, həm də resursların və tullantıların ekoloji baxımdan səmərəli idarə edilməsini nəzərdə tutur.

Bu yanaşma çox vacibdir, çünki ətraf mühitin və resursların məsuliyyətlə idarə edilməsi ətraf mühitə təsirimizi minimuma endirməklə yanaşı, fəaliyyətimizin uzunmüddətli həyat qabiliyyətini təmin edir. Resurslardan səmərəli istifadə etməklə və tullantıları effektiv idarəetmə strategiyalarını tətbiq etməklə biz fəaliyyətimizin səmərəliliyini artıra, xərcləri azalda, normalara əməl edə və ətraf mühiti gələcək nəsillər üçün qoruya bilərik. Bu niyyət dayanıqlılığa sadiqliyimizi əks etdirir və biznesin inkişafı ilə ətraf mühitə qayğı arasında tarazlığı təmin etmək məsuliyyətimizi təsdiqləyir.

İqlim dəyişikliyi ilə mübarizə aviasiya sənayesi üçün vacibdir. İqlim dəyişikliyinə cavab olaraq görülən tədbirlər həm əməliyyat, həm də ekoloji baxımdan fayda gətirir.



# İQLİM DƏYİŞİKLİYİNƏ REAKSİYA

Qlobal istixana qazı emissiyalarının təxminən 3%-i aviasiya sənayesinin payına düşür ki, bu da onu karbonsuzlaşdırma üçün ən çətin sektorlardan birinə çevirir. Bununla yanaşı, bir neçə vacib səbəbdən iqlim dəyişikliyi ilə mübarizə aparmaq aviasiya şirkətləri üçün çox vacibdir. Dünyadakı hökumətlər aviasiya da daxil olmaqla bütün sənaye sahələrində emissiyaların azaldılmasına yönəlmiş siyasət və normalar tətbiq edirlər.

Ekoloji məsuliyyətimizi dərk edərək, yanacaqdan səmərəli istifadə və emissiyaları azaltma texnologiyalarına investisiya yatırmağa davam etmək niyyətindəyik. Bu investisiyalar həm ətraf mühitə həssas müştəriləri, həm də investorları cəlb edərək ətraf mühitə daha az diqqət yetirən rəqiblər üzərində rəqabət üstünlüyü qazandıra bilər. Bundan başqa, qlobal aviasiya sənayesi kollektiv olaraq hökumətlər tərəfindən dəstəklənən məqsəd olan 2050-ci ilə qədər sıfır karbon emissiyasına nail olmaq öhdəliyi götürüb. Bu iddialı hədəfə nail olmaq bütün sektorda əhəmiyyətli səy və yenilik tələb edəcək.

İqlim dəyişikliyi ilə mübarizə aviasiya sənayesi üçün vacibdir. İqlim dəyişikliyinə cavab olaraq görülən tədbirlər həm əməliyyat, həm də ekoloji baxımdan fayda gətirir. Məsələn, yanacaqdan səmərəli istifadənin artması əməliyyat xərclərini azaldır və daha az istixana qazları emissiyasına səbəb olur. Aviasiya sənayesində emissiyalar xüsusi narahatlıq doğurur, çünki hava gəmilərindən emissiyaların əksəriyyəti yüksək hündürlüklərdə baş verir və həmin emissiyalar burada inversiya izləri və digər atmosfer təsirləri səbəbindən yer səviyyəsindən daha güclü istiləşmə təsiri göstərir.

AZAL olaraq biz ekoloji məsuliyyətin ən yüksək standartlarına əməl etməyə çalışırıq. Bu niyyətə istixana qazı emissiyalarının diqqətlə tənzimlənməsi və tullantılar, su və səs-küy kimi resurslardan səmərəli istifadə daxildir. Məqsədimiz ətraf mühitə təsirimizi minimuma endirmək və daha dayanıqlı gələcəyə töhfə verməkdir.

# İSTİXANA QAZI EMİSSİYALARI VƏ YANACAQDAN SƏMƏRƏLİ İSTİFADƏ

Fəaliyyətimiz nəticəsində yaranan karbon izini əhəmiyyətli dərəcədə azaltmağa, gələcək nəsillər üçün planetin təhlükəsizliyini təmin etməyə çalışırıq. Bizim yanaşmamıza fəaliyyətimizin bütün sahələrində istixana qazı emissiyalarının yaxından izlənilməsi və iqlim dəyişikliyi ilə mübarizə üçün proaktiv tədbirlərin görülməsi daxildir. Biz çoxsaylı milli və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməklə regionda dayanıqlı inkişaf təşəbbüslərini təbliğ edirik. AZAL iqlim hədəflərinə nail olmaq üçün Azərbaycan da daxil olmaqla 126 dövlət tərəfindən könüllü olaraq qəbul edilmiş Beynəlxalq aviasiya üçün karbon kompensasiya və azaltma sxemi (CORSIA) üzrə irəliləyişi fəal şəkildə davam etdirir.

2022-2023-cü illərin fərqləndirici xüsusiyyəti odur ki, biz qlobal miqyasda bütün sektorlara, o cümlədən aviasiya sektoruna təsir edən pandemiyadan sonrakı əməliyyatlarımızı yeni rejimə uğurla uyğunlaşdırdıq. Digər tərəfdən, uçuşların sayının artması ümumi emissiyaların artmasına səbəb olur. Lakin, hər kilometrə düşən emissiyaların miqdarını ölçən xüsusi emissiya məlumatları hətta cüzi azalma olduğunu göstərir. Səmərəliliyi artırmaqla dayanıqlı şəkildə işləmək üçün yanacaqdan səmərəli istifadəni yaxşılaşdımağa xüsusi diqqət yetiririk. Əsas təşəbbüslərimizdən biri mühərriklərdə qabaqcıl texnologiyası və təyyarə boyunca çəkinin əhəmiyyətli dərəcədə optimallaşdırılması sayəsində 20-30% daha az yanacaq sərf etməyə imkan verən Airbus A320neo və Boeing 787-8 Dreamliner hava gəmilərindən istifadə etməkdir. Bu çəkinin optimallaşdırılması, təyyarənin ümumi çəkisini azaldan və yanacaqdan səmərəli istifadəni yaxşılaşdıran daha yüngül materiallardan və təkmilləşdirilmiş konstruksiya həllərindən istifadəni nəzərdə tutur.

AZAL-da IATA standartlarına uyğunlaşdırmağa çalışdığımız bir-biri ilə əlaqəli iki əsas prinsipə diqqət yetirərək yanacaqdan səmərəli istifadəmni yaxşılaşdırmağa çalışırıq: Texnologiya və İnnovasiya və Daim təkmilləşdirilən əməliyyatlar və infrastruktur. Hər kilometrdə qənaət etdiyimiz yanacağın istixana qazı emissiyalarını azaltdığını və iqtisadi dayanıqlığımıza dəstək verdiyiniz bilirik.

Biz bort xidmətləri və hava limanı xidmətləri də daxil olmaqla, fəaliyyətimizin bütün sahələrində texnologiya və innovasiyalara sərmayə yatırmağa çalışır, eləcə də Milli Aviasiya Akademiyası ilə strateji tərəfdaşlığımız çərçivəsində intensiv tədqiqat və inkişafı dəstəkləyirik.

2022 və 2023-cü illərdə AZAL yeni Airbus A320neo, Airbus A321neo və Boeing 787-8 Dreamliner hava gəmilərini sifariş etməklə öz təyyarə parkının modernləşdirilməsi istiqamətində strateji addım atıb. İlk üç Airbus A320neo hava gəmisi 2023-cü ildə uçuşlar həyata keçirməyə başlayıb. Yanacaqdan səmərəli istifadəsi və çoxyönlü olması ilə tanınan bu hava gəmiləri geniş kabinələr, geniş üst rəflər və daha sakit istismar kimi qabaqcıl imkanlar da təklif edir.

Həm uçuş, həm də yerüstü xidmət zamanı yanacaqdan səmərəli istifadəyə sadiqliyimiz istixana qazı emissiyalarını azaltmaq və təmiz və təhlükəsiz ətraf mühit yaratmaq məqsədimizə müsbət təsir göstərir. Bütün hava limanlarımızda və yerüstü nəqliyyat obyektlərimizdə emissiyaları hesablayırıq. Bundan başqa, AZANS Azərbaycanın hava məkanında FIR rayonu, ENR və LTO əməliyyatları üçün emissiyalara nəzarət edir.

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Bütün uçuşlardan qaynaqlanan $CO_2$ emissiyaları (ton ilə) | 128,669 | 324,878 | 465,336 |
| Bütün uçuşlardan qaynaqlanan xüsusi $CO_2$ emissiyası, hər kilometrdə ton $CO_2$ ilə | 0.01 | 0.012 | 0.011 |

Cədvəl 10. Yerdə ümumi yanacaq sərfi

### DAİM TƏKMİLLƏŞDİRİLƏN ƏMƏLİYYATLAR VƏ İNFRASTRUKTUR

- Marşrutun optimallaşdırılması
- Azərbaycanda fasiləsiz eniş və fasiləsiz yüksəliş (CDO/CCO)
- Yeni park yerləri/ yerüstü idarəetmə yolları
- Bir mühərriklə yerüstü idarəetmə
- Şaquli eşalonlaşdırma intervalının azaldılması (RVSM)
- RNP/Yanaşma
- APU (Köməkçi güc qurğusu)

### TEXNOLOGİYA VƏ İNNOVASİYA

- Təyyarə parkının modernləşdirilməsi
- Tədqiqat və təkmilləşdirmə məsələləri barədə Azərbaycan Milli Aviasiya Akademiyası ilə sıx əməkdaşlıq etmək
- Əlavə yanacağı idarəetmə

Şəkil 9. Yanacaqdan səmərəli istifadəyə yanaşmamız

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Ümumi yanacaq sərfi, l (təbii qaz istisna olmaqla) | 1,984,619 | 2,001,502 | 1,274,751 |

Cədvəl 11. Yerdə ümumi yanacaq sərfi

# ƏTRAF MÜHİTİ İDARƏETMƏ SİSTEMİ

### Səs-küyə qarşı mübarizə

Biz bir neçə vacib səbəbdən səs-küyə qarşı mübarizə strategiyalarını prioritetləşdirməyin və səs-küy normalarına riayət etməyin vacibliyini qəbul edirik. Həddindən artıq hava gəmisi səs-küyünün əhalinin sağlamlığına təsirinin azaldılması çox vacibdir, çünki hava limanlarının yaxınlığında yaşayan sakinlər səs-küy səviyyəsinə düzgün nəzarət edilmədiyi təqdirdə yuxu pozğunluğu kimi problemlərdən əziyyət çəkə bilərlər.

Səs-küyün effektli şəkildə azaldılması hava limanlarının və hava hərəkətinin dayanıqlı inkişafını təmin etmək üçün də vacibdir, çünki əməliyyatların təsir etdiyi əhalinin maraqları nəzərə alınmadan bu cür inkişaf mümkün deyil. Buna görə də FAA və Avronəzarət-in tələblərinə uyğun olaraq ayrılan səs-küy səviyyələrini minimuma endirməyə çalışırıq. Hava limanlarımız Ətrafda Səs-küy Direktivinə (END) və Aİ-nın reqlamentlərinə riayət edir, hər biri istənilən həddi dəyərlərin aşılmasına nəzarət etmək üçün səs-küy vericiləri ilə təchiz olunub.

Təyyarələrimizin təchiz edildiyi, Milli və IATA tələblərinə cavab verən hər bir mühərrik növü üçün səs-küy sertifikatları alırıq. Etibarlı səs-küy idarəetmə təcrübələrini tətbiq etməklə və normalara riayət etməklə, biz əhaliyə təsirləri azaltmaq, inkişafa imkan yaratmaq, standartlara riayət etmək, əməliyyat məhdudiyyətlərindən çəkinmək və Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) kimi qurumlar tərəfindən tələb edilən daha səssiz təyyarələrin inkişafını təşviq etmək niyyətindəyik.

**QARŞISINI ALMA**

Təkrar istifadə edilə bilən materiallardan istifadə etməklə qablaşdırmanı azaltmaq kimi strategiyaları tətbiq etməklə, habelə təkrar emal vasitəsilə tullantıların qarşısı alına bilər. Bundan başqa, sərnişinlərin dayanıqlılıq səylərinə cəlb edilməsi və tullantıların ardıcıl işlənməsi təcrübələrini təmin etmək üçün yerüstü xidmət personalı ilə əməkdaşlıq aviasiya sektorunda tullantıları azaltmaq istiqamətində atılan vacib addımlardır.

**AZALTMA**

Yanacaq sərfini azaltmaq üçün təyyarə konstruksiyalarında yüngül çəkili materiallardan istifadə etməklə tullantıları azaltmaq olar. Aviaşirkətlər kağız israfının qarşısını almaq üçün rəqəmsal minik talonlarına, təlimatlara və bort jurnallarına keçə bilərlər.

**TƏKRAR İSTİFADƏ EMAL BƏRPA**

Təkrar istifadə, təkrar emal və bərpa təşəbbüsləri vasitəsilə dayanıqlılıq gücləndirilə bilər. Buraya tullantıları azaltmaq məqsədilə təyyarə detallarının təmiri, eləcə də təkrar istifadə edilə bilən iaşə məhsullarından və dəftərxana ləvazimatlarından istifadə daxildir. Təkrar emal proqramlarının tətbiqi və hava limanlarının kompleks təkrar emal obyektlərinin təmin edilməsi materialları səmərəli şəkildə idarə etməyə kömək edir.

**UTİLİZASİYA**

Prioriteti tullantıların azaldılması, məqsədi isə utilizasiyaya sıfır tullantının yönləndirilməsi olan siyasətləri qəbul etməklə tullantıların utilizasiyaya yönləndirilməsini minimuma endirməyə diqqət yetiririk. Burada ətraf mühitə təsiri azaltmaq üçün həm təyyarələrdən, həm də yerüstü fəaliyyətlərdən qaynaqlanan batareya və elektron tullantılar kimi təhlükəli materialların təhlükəsiz və düzgün utilizasiyası da xüsusilə vurğulanır.

Şəkil 10. Tullantıların idarə edilməsi

### Tullantıların idarə edilməsi

Ekoloji dayanıqlılıq prinsiplərinə sadiq qalmaq niyyəti ilə AZAL-ın ətraf mühitə təsirini minimuma endirməyə yönəlmiş tullantıların idarə edilməsi üzrə müxtəlif təşəbbüslər vasitəsilə tullantıların yaranmasının qarşısını almağa çalışırıq. Pandemiyadan sonra fəaliyyətimizin genişlənməsi səbəbindən son üç ildə yaranan tullantıların miqdarı artsa da, dayanıqlı gələcək üçün tullantıların azaldılmasının vacibliyini qəbul edirik. Çətinliklərə baxmayaraq, biz hələ də tullantıları minimuma endirməyə və tullantıların idarə edilməsi üçün ən yaxşı təcrübələri fəaliyyətimizə uyğunlaşdırmağa çalışırıq. Bu məqsədə nail olmaq üçün istinad kimi Şəkil 10-da göstərilən tullantıların idarə edilməsi iyerarxiyasından istifadə edirik.

Tullantıların idarə edilməsi strategiyamızda tullantıların yaranmasının qarşısını almaq və azaltmaq, sonra isə qarşısının alınmasının mümkün olmadığı hallarda təkrar istifadə və təkrar emal məsələləri prioritetdir. Tullantıların idarə edilməsi üçün yenilikçi həllər hazırlayarkən, kağıza qənaət etmək üçün uçuş məlumatlarının rəqəmsallaşdırılması və uçuş zamanı yaranan qida tullantılarının HACCP prinsiplərinə uyğun olaraq işlənməsi kimi mövcud təcrübələrimizə sadiq qalmağa davam edirik.

Tullantıların yaranmasına daim nəzarət edir və tullantılar və təkrar emal edilə bilən materiallar haqqında rəsmi statistik hesabatları hazırlamaqla məlumat veririk. Bu hesabatlar Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, daha sonra isə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim olunur. Mümkün olduqda tullantıların qarşısının alınması və lazım olduqda minimuma endirilməsi ekoloji dayanıqlılıq sahəsində əsas prioritetlərimizdən biridir.

Eyni zamanda, bütün işçilərin dayanıqlı inkişaf səylərimizə səmərəli töhfə vermək üçün müvafiq təlim keçmələrini təmin edirik. Tullantıların idarə edilməsi təcrübələrimizə tullantıların növünün və mənbəyinin müəyyənləşdirilməsi, onların təsnifatı və bütün hava limanlarımızda müvafiq olaraq toplanması daxildir. Tullantıların idarə edilməsi və mümkün olduqda toplanan tullantıların təkrar emalı ilə bağlı müntəzəm hesabatların verilməsi ilə bütün ekoloji normalara riayət etmək üçün hökumətlə sıx əməkdaşlıq edirik. Tullantıların idarə edilməsi üçün bütün prosedurlar dövlətin normativ aktlarına uyğun olaraq həyata keçirilir.

AZAL Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq etməklə Azərbaycanda ətraf mühitin mühafizəsi səylərini fəal şəkildə dəstəkləyir. Bu tərəfdaşlıq, ağacəkmə aksiyaları, çimərliklərin təmizlənməsi və işlənmiş batareyaları toplama proqramları da daxil olmaqla dayanıqlılığı təşviq etmək və ətraf mühit haqqında məlumatlılığı artırmaq üçün müxtəlif təşəbbüsləri əhatə edir. Bu səylər təkcə təbii resursların qorunmasına kömək etmir, həm də AZAL-ın dayanıqlı inkişafa və gələcək nəsillər üçün daha sağlam ekosistemin yaradılmasına sadiqliyini nümayiş etdirməklə ictimaiyyətin iştirakını və ətraf mühitə qarşı məsuliyyəti təşviq edir. AZAL hökumətlə əməkdaşlıq etməklə yanaşı, ətraf mühitin mühafizəsinə daha çox töhfə vermək məqsədilə kağız tullantılarının təkrar emalı kimi layihələrdə özəl sektorla da əməkdaşlıq edir.



### Enerji və su sərfiyyatı

Ekoloji dayanıqlılığa sadiqliyimiz sadəcə fəaliyyətimizin nəticələrini izləməklə və onlara nəzarət etməklə məhdudlaşmır. Buraya bütün fəaliyyətlərimizdə resurslardan dayanıqlı istifadə də daxildir. Resursların məsuliyyətli idarə edilməsini təmin etmək üçün dörd prinsipə əməl edirik.

Biz hesab edirik ki, su və enerjidən dayanıqlı istifadə resursların qorunması və məsuliyyətli istifadə üçün mühüm əhəmiyyət kəsb edir. Suvarma suyundan istifadəni minimuma endirmək üçün damcı və çiləyici suvarma sistemlərindən istifadə edirik.

Enerjidən səmərəli istifadə səylərimizdə minimum enerji sərf edən yeni LED lampalardan və kondisionerlərdən istifadə edirik. Bu təşəbbüslər resursların məsuliyyətli idarə edilməsinə və ekoloji dayanıqlılığa sadiqliyimizi təsdiq edir.




Şəkil 11. Yaranan tullantılar

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Yaranan tullantıların ümumi miqdarı, tonla | 1,855 | 2,094 | 2,590 |

Cədvəl 12. Yaranan tullantılar

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Ümumi su götürmə, $m^3$ | 615,190 | 619,399 | 762,147 |

Cədvəl 13. Su götürmə

# Nəticə

2022-2023-cü illər üçün bu Dayanıqlılıq hesabatını yekunlaşdırarkən AZAL şəffaflığa, hesabatlılığa və dayanıqlı inkişafa sadiqliyini bir daha təsdiq edir. Bu hesabatda ESG aspektləri ilə əlaqəli nailiyyətlərimizə, problemlərimizə və davam edən layihələrimizə diqqət yetirməklə hesabat dövrü ərzində fəaliyyətlərimiz və əldə etdiyimiz irəliləyiş ətraflı nəzərdən keçirilib. AZAL dayanıqlılıq proqramımızın irəliləməsi istiqamətində əhəmiyyətli tərəqqiyə nail olub.

Hal-hazırda ətraf mühitə təsirimizi azaltmaq, fəaliyyətimizin səmərəliliyini artırmaq və müxtəlifliyə, ədalətə və inklüzivliyə dəyər verən iş mədəniyyətini formalaşdırmaq üçün səylərimizi artırırıq. İctimaiyyətin cəlb edilməsi və korporativ idarəetmə təşəbbüslərimiz etik işgüzar təcrübələrə və maraqlı tərəflərlə qarşılıqlı əlaqəyə sadiqliyimizi nümayiş etdirir.

Gələcəyə nəzər salsaq, AZAL hələ də aviasiya sektorunda nümunə olmağa çalışır, dayanıqlılıq üçün standartları müəyyən edir və başqalarını bu işdə bizə qoşulmağa ruhlandırır. Əminik ki, kollektiv səylərimiz daha dayanıqlı və möhkəm gələcəyə yol açacaq.

